16 oktyabr 2024 №77 (2142)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azad edilmiş ərazilərdə bərpa-quruculuq, həmrəylik və ekoloji davamlılıq

"Rebuild Karabakh" sərgisi işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması baxımından xüsusi əhəmiyyət kəsb edir. Hər il keçirilən bu sərgidə müxtəlif layihələr nümayiş etdirilir, Qarabağın bərpasına və yenidən qurulmasına dair təşəbbüslər müzakirə olunur.

Bu sözlər Prezident İlham Əliyevin 4-cü Azərbaycan Beynəlxalq "Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı" – "Rebuild Karabakh" ("Qarabağı bərpa et") sərgisinin iştirakçılarına müraciətində vurğulanır.

Ənənəvi "Xəzər İnşaat Həftəsi" çərçivəsində təşkil olunan sərgi oktyabrın 15-də Bakı Ekspo Mərkəzində işə başlayıb.

Prezidentin müraciətində qeyd olunur ki, builki sərgi "Yaşıl dünya naminə həmrəylik ili" və COP29 beynəlxalq tədbiri ilə eyni dövrə təsadüf edir. "Rebuild Karabakh" sərgisi bu mötəbər tədbirlə ortaq məqsədə, yəni dayanıqlı inkişaf naminə əməkdaşlığa yönəlib. Sərgidə təqdim olunan ekspozisiyalar və müzakirə mövzuları bərpa-quruculuq işlərini, həmrəyliyi və ekoloji davamlılığı nəzərdə tutur.

## ICESCO Azərbaycanla daha sıx əməkdaşlıqda maraqlıdır



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva İslam dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Mərakeşin Rabat şəhərində yerləşən qərargahında olub.

Oktyabrın 14-də ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malikin görüşdə Heydər Əliyev Fondunun fəaliyyəti, Azərbaycan-ICESCO əməkdaşlığı müzakirə edilib.

Noyabr ayında ölkəmizdə keçiriləcək COP29 çərçivəsində Fond və ICESCO arasındakı əməkdaşlıq, təşkilatın COP29-da pavilyonla təmsil olunması ilə bağlı məsələlər diqqət mərkəzində olub.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təsisçisi və rəhbəri olduğu IDEA İctimai Birliyi tərəfindən həyata keçirilən ekoloji layihələr barədə də məlumat verilib. Ətraf mühitin qorunması sahəsində ICESCO ilə Heydər Əliyev Fondunun gələcək əməkdaşlığı nəzərdən keçirilib.

Görüşdən sonra Heydər Əliyev Fondu ilə ICESCO arasında Burkina-Fasoda (Qərbi Afrikada dövlət – red.) məcburi köçkün qızlar və internat evləri üçün təhsil və sosial dəstək layihəsi üzrə əməkdaşlıq sazişi imzalanıb.

davamı səh. 2-də

## İzmirdə və İstanbulda "Azərbaycan mədəniyyəti və sənəti günləri"

15–17 oktyabr tarixlərində Türkiyənin İzmir və İstanbul şəhərlərində "Azərbaycan mədəniyyəti və sənəti günləri" keçirilir. Layihə Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşır.

Silsilə tədbirlərin ilk günü İzmirdəki Ege Universitetində "Türk dünyasının modernləşməsi: Türk dünyasında mətbuat" mövzusunda beynəlxalq simpozium təşkil olunub.

Ege Universiteti Ədəbiyyat fakültəsinin türk dili və ədəbiyyatı bölümü, Yunus Əmrə İnstitutu, Azərbaycan Mədəniyyət Mərkəzi, Avrasiya Yazarlar Birliyi və digər qurumların birgə təşkilatçılığı ilə keçirilən simpozium Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabiyə həsr olunub.

davamı səh. 3-də

## Abdulla Şaiq ocağında "Füzuli rindü-şeydadır..."

Oktyabrın 15-də Abdulla Şaiqin Mənzil-Muzeyində "Füzuli rindü-şeydadır..." adlı ədəbi-bədii və musiqili tədbir keçirilib. Tədbir dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illik yubileyi ilə bağlı ölkə başçısının sərəncamından irəli gələrək təşkil olunub.



Tədbiri Azərbaycan Milli Konservatoriyasının (AMK) tələbələrindən ibarət "Şəms-Qəmər" kamera xoru açıb. Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasından "Şəbi-hicran" xoru səslənib.

Muzeyin baş mühafizi Günel Əsədova qonaqları salamlayaraq Məhəmməd Füzulinin həyat və yaradıcılığı ilə bağlı qısa məlumat verib. Muzeyin direktoru Ülkər Talıbzadə "Füzulinin musiqi dünyası" mövzusunda danışıb.

davamı səh. 2-də

# Fərman onun fərmanıdır...

### Şah İsmayıl Xətainin möhürü olan 516 yaşlı sənəd Tarix Muzeyinə hədiyyə edilib





Oktyabrın 15-də Milli Azərbaycan Tarixi Muzeyində maraqlı bir təqdimat oldu. Səfəvilər dövlətinin banisi, böyük sərkərdə və şair Şah İsmayıl Xətainin (1487–1524) möhürü olan tarixi sənədin – 1508-ci ilə aid fərmanın muzeyin fonduna daxil edilməsi ilə bağlı mərasim keçirildi.

Fərman bu il İngiltərədə, "Christie's" hərracında Azərbaycan vətəndaşı tərəfindən satın alınaraq Tarix Muzeyinə hədiyyə edilib. Sənəd Şah İsmayıl Xətai tərəfindən 1508-ci il iyulun 4-də (hicri-qəməri təqvimi ilə 914-cü il səfər ayının 25-i) imzalanıb. Fərman fars dilində, "qara şikəstə" üslubu ilə yazılıb və Xətainin möhürü ilə təsdiqlənib. Səfəvi hökmdarının mülkiyyət məsələlərinə dair fərmanlarından biri olan sənəd bütöv və möhürlü vəziyyətdə olması ilə xüsusi əhəmiyyət daşıyır.



Təqdimat mərasimində Milli Məclisin sədr müavini akademik Rafael Hüseynov, Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu, millət vəkilləri, mədəniyyət və elm xadimləri iştirak edirdilər.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov çıxış edərək bildirdi ki, xalqımıza məxsus tarixi və mədəni irs nümunələrinin Azərbaycana qaytarılması və qorunub saxlanılması dövlətimizin daim diqqət mərkəzindədir. Bu həm də mədəniyyət siyasətimizin əsas istiqamətlərindən biridir: "Dövlət qurumlarının bu sahədə apardığı işlərə vətəndaşlarımızın da dəstək verməsi təqdirəlayiq haldır və bu cür təşəbbüslər cəmiyyətimizin həmrəyliyini və milli dəyərlərə bağlılığını nümayiş etdirir. Səfəvilər imperiyasının ilk illərinə məxsus bu nadir sənəd Azərbaycanın dövlətçilik ənənələrinə dair dəyərli eksponat olmaqla yanaşı, gələcək nəsillər üçün tarixi mənbədir".

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Şah İsmayıl Xətai imzalı bir sənədin ölkəmizə gətirilməsini böyük tarixi və siyasi əhəmiyyətli hadisə kimi dəyərləndirdi.

Milli Azərbaycan Tarixi Muzeyinin direktoru akademik Nailə Vəlixanlı qeyd etdi ki, Azərbaycanın tarixi və mədəni irs nümunələrinin ölkəyə qaytarılması artıq ənənəyə çevrilib: "Vətəndaşımızın şəxsi təşəbbüsü ilə Azərbaycan xalqının böyük oğlu, sərkərdə və şair Şah İsmayıl Xətainin fərmanının satın alınaraq muzeyimizə hədiyyə edilməsi əsl vətənpərvərlik nümunəsidir. Bu həm də xalqımızın öz tarixini yaşatmaq və ona sahib çıxmaq əzmini göstərir".

davamı səh. 2-də

## Füzulidə növbəti "Şəhər günü" təntənəsi olacaq

"Böyük Qayıdış" Proqramı çərçivəsində işğaldan azad olunmuş torpaqlardan ən çox keçmiş məcburi köçkünün məskunlaşdığı ünvan Füzuli şəhəridir. Füzuliyə ilk köç karvanı 2023-cü ilin 18 avqust tarixində olmuşdu: 23 ailə – 90 nəfər. Bu gün artıq burada 822 ailənin (3132 nəfər) daimi məskunlaşması təmin edilib.




Ötən bir il ərzində sakinlərin doğma yurda qovuşması ilə yanaşı, şəhərin mədəni-maarif həyatı üçün də əlamətdar hadisələr baş verib. 23 avqust 2023-cü il tarixində Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışını ediblər. Qardaş özbək xalqı adından hədiyyə olan 960 şagird yerlik təhsil ocağında hər cür şərait yaradılıb.

Füzuli sakinləri üçün daha bir əlamətdar hadisə isə bu ilin 12 mart tarixində yaşandı. Prezident İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin qapılarını füzulililərin üzünə açdılar. Qazaxıstan dövlətinin hədiyyəsi olan bu mərkəz işğaldan azad edilən ərazilərdə ilk incəsənət təhsili ocağı kimi əhəmiyyətlidir. 2024/2025-ci tədris ilindən burada fortepiano, qanun, qarmon, tar, violin və rəqs ixtisasları üzrə tədrisə başlanılıb. İlk olaraq 24 şagirdin təhsilə cəlb edildiyi mərkəzdə beş təcrübəli müəllim onlara sənətin sirlərini öyrədir.

Doğma yurda qayıtmış Füzuli sakinləri bu günlərdə böyük həvəs və sevinclə bayram şöləninə – "Şəhər günü"nə hazırlaşır. Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonunda xüsusi nümayəndəliyinin birgə təşkilatçılığı ilə oktyabrın 17-də təntənəli şəkildə növbəti Füzuli Şəhəri Günü keçiriləcək. Tədbir iştirakçıları rəngarəng tematik sərgilərlə tanış olacaq, incəsənət ustalarının, bədii kollektivlərin ifasında maraqlı konsert proqramını izləyəcəklər.

Qeyd edək ki, Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixdə imzaladığı sərəncamla Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilib. 17 oktyabr Füzuli Şəhəri Günü kimi təqvimimizə daxil olub.

## "Nəsillərin görüşü"

### Görkəmli bərpaçı-rəssamın xatirəsi əsasını qoyduğu sənət ocağında yad olundu



Onları mədəni sərvətlərin ömrünü uzadanlar, mədəni sərvətləri xilas edənlər, muzey eksponatlarına ikinci həyat verənlər, yaxud da tarixin şahidlərini yaşadanlar da adlandırırlar. Onlar mədəni irsimizi qorumaq uğrunda çalışırlar.

Bu il ölkəmizdə bərpa rəssamlığının əsasını qoyan tanınmış mütəxəssis Fərhad Hacıyevin 95 illik yubileyidir. Onun yubiley mərasimi də elə qurub-yaratdığı Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzində qeyd edildi.

Fərhad İbrahim oğlu Hacıyev 1929-cu ildə Şamaxı şəhərində anadan olub. 1949-cu ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirib. 1950–1955-ci illərdə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda təhsil alıb, bərpaçılıq sənətinin sirlərinə dərindən yiyələnib.

Bu gün məhz onun rəhbərliyi ilə yaradılan mərkəz Azərbaycan muzeylərində bərpa və konservasiyaya ehtiyacı olan minlərlə eksponata ikinci həyat verib. Xalqımızın zəngin bədii-tarixi irsi, dəyərli maddi-mənəvi sərvətləri bu mərkəzdə peşəkar bərpaçı-rəssamların qayğıkeş əllərinin nəvazişi nəticəsində xilas olunub.

davamı səh. 5-də



"Vətənim Qərbi Azərbaycan" müsabiqəsinin yekun sərgisi

səh. 3

"Ah, bu könül nəğmələri..."



səh. 8



# Avropa İttifaqı Ermənistan-Azərbaycan sülh məsələsində neytrallıq saxlamalıdır

## Prezident İlham Əliyev: Əfsuslar olsun ki, Brüsseldə, ittifaqın mənzil-qərargahında bəziləri tərəfkeşlik edirlər

Avropa İttifaqı əvvəllər olduğu kimi, Ermənistan-Azərbaycan sülh məsələsində neytrallıq saxlamalıdır. Avropa İttifaqı torpaqlarımızın işğalı dövründə bu məsələdə heç vaxt fəal olmamışdır. Bizim bununla bağlı müraciətlərimiz belə cavablandırılırdı ki, bu məsələ ilə Minsk qrupu məşğul olur, Avropa İttifaqının bu məsələyə aidiyyəti yoxdur. Hazırda isə Avropa İttifaqının bu məsələyə fəal cəlb olunduğu görünür. Lakin əfsuslar olsun ki, Brüsseldə, ittifaqın mənzil-qərargahında bəziləri tərəfkeşlik edirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sözləri oktyabrın 14-də Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Julyen de Freponun etimadnaməsini qəbul edərkən onunla söhbət zamanı deyib.

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, hazırda nümayiş olunan bu yanaşma qeyri-məhsuldar bir mövqedir, yalnız etimadsızlıq yaradır və Avropa İttifaqını normallaşma prosesindən təcrid edir. "Mən belə bir tövsiyə edərdim ki, Avropa İttifaqı və Azərbaycan əməkdaşlığının davam etdirilməsi naminə Fransanın yolu ilə gedilməsin, özlərini Fransanın təsirinə salmasınlar. Çünki Fransanın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması ilə bağlı siyasəti destruktiv siyasət olub və tamamilə bu cür də qalmaqdadır", – deyə İlham Əliyev əlavə edib.

Prezident onu da vurğulayıb ki, Azərbaycan-Avropa İttifaqı münasibətlərində etimadsızlıq yaradan məsələlərdən biri də sərhəddə dırnaqarası "Avropa müşahidəçilər missiyasının" müddətinin bizim razılığımız olmadan, hətta bizimlə məsləhətləşmədən uzadılmasıdır: "Buna nə ehtiyac var idi?! 2022-ci ilin oktyabrında Praqada Azərbaycan ona razılıq vermişdi ki, bu missiya 2 ay orada qalsın və istefaya çıxmış məhdud sayda hərbi zabitlərdən ibarət olsun. Lakin bu missiyanın müddəti uzadıldıqda bizimlə heç kim məsləhətləşmədi. İndi də əlavə müddətə uzadılması istiqamətində müzakirələr aparılır. Missiya üzvlərinin davranışı, necə deyərlər, "binokl diplomatiyası" heç cür qəbuledilməz və hər hansı bir normal siyasi mədəniyyət standartlarından kənar idi. Biz Avropa İttifaqı ilə təmaslarda bu məsələni qaldıracağıq".

Bu məlumatlara görə təşəkkürünü bildirən Julyen de Frepon öz tərəfindən əlaqələrimizin inkişafı üçün səylərini əsirgəməyəcəyini deyib, ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğulayıb.

Azərbaycanda COP29-un keçirilməsi münasibətilə təbriklərini çatdıran səfir bu tədbiri iqlim dəyişmələri ilə bağlı qlobal çağırış kimi dəyərləndirib. O, eyni zamanda, Belçikanın bu tədbirdə yüksək səviyyədə təmsil olunacağını bildirib.

Regional sabitliyin Belçika üçün də böyük önəm daşıdığını diqqətə çatdıran diplomat Ermənistan-Azərbaycan münasibətləri ilə də bağlı regional sabitlikdə ölkəsinin maraqlı olduğunu deyib.

Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması üzrə son dövrlərdəki irəliləyişi qeyd edən səfir bu istiqamətdə atılan addımları Belçikanın təşviq etdiyini söyləyib. O, həmçinin Azərbaycanın üzləşdiyi mina çağırışları məsələsində də Belçikanın göstərdiyi dəstəyin bundan sonra da davam etdirəcəyini vurğulayıb.

Belçikanın Avropa İttifaqının əsasını qoyan üzv dövlətlərdən biri olduğunu deyən Julyen de Frepon ölkəsinin Azərbaycan ilə Avropa İttifaqı arasında enerji keçidi, iqlim dəyişmələri, iqtisadiyyat və ticarət sahələrində əməkdaşlıqda maraqlı olduğunu bildirib.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərin inkişafı üçün yaxşı potensialın mövcudluğunu qeyd edərək, iki ölkənin xarici işlər nazirləri arasında keçirilən görüşlərin əməkdaşlığın gündəliyi məsələsinin müzakirəsi üçün faydalı olduğunu deyib.

Prezident İlham Əliyev COP29-a hazırlıq işlərinin yekun mərhələdə olduğunu bildirib və növbəti ildə Azərbaycanın COP-a sədrliyi dövründə də dünyanın müxtəlif bölgələri arasında körpü rolu oynamaq əzmində olduğunu deyib. Qeyd edib ki, planlaşdırdığımız layihələrin artıq bir hissəsinin həyata keçirildiyini nəzərə alsaq, qarşıdakı illərdə enerji sektorumuzda bərpaolunan enerjinin payı əhəmiyyətli dərəcədə artacaq və biz bu sahədə Belçika şirkətləri ilə əməkdaşlıq etməyə hazırıq.

Avropa İttifaqı ilə əlaqələr kontekstində Brüsseldə Aİ Şurasının Prezidenti Şarl Mişelin dəstəyi ilə Ermənistanla Azərbaycan arasında aparılmış danışıqları xatırladan İlham Əliyev bildirib ki, həqiqətən, orada mühüm irəliləyişə nail olunmuşdu: "Lakin əfsuslar olsun ki, Ermənistan tərəfi Brüssel prosesi adlanan bu prosesi davam etdirməmək qərarına gəldi. Ancaq hər bir halda bu, çox yaxşı nəticə və təcrübə verən müsbət proses idi".

Prezident İlham Əliyev qeyd edib ki, hazırkı şəraitdə daha çox diqqət ikitərəfli müstəviyə cəmlənib. Dövlətimizin başçısı vurğulayıb ki, sülh müqaviləsinin bütün bəndləri eyni dəyərə malikdir, birini digərindən ayırmaq olmaz. Bu baxımdan Ermənistan hökumətinin "bu vaxtadək nə barədə razılaşdırılıbsa, ona imza atılsın, razılaşdırılmamış müddəalar növbəti mərhələlərə saxlanılsın" qəribə təklifini tamamilə reallıqdan kənar hesab edirik.

Azərbaycan rəhbəri xatırladıb ki, torpaqlarımızın işğalı dövründə dırnaqarası "Madrid prosesi prinsipləri" mövcud idi və bunun qarşılıqlı razılaşdırılmış əsas müddəalarından biri də o idi ki, bütün məsələlər razılaşdırılmadan heç nə razılaşdırıla bilməz. Bu, ATƏT-in Minsk qrupu həmsədrlərinin, Ermənistanın və Azərbaycanın mövqeyi idi və biz bu mövqedə qalırıq: "Əfsuslar olsun ki, keçmiş Minsk qrupunun bəzi üzvləri bununla bağlı öz mövqelərini dəyişdirdilər və Ermənistanın indiki qeyri-real təklifini dəstəkləyirlər. Bir çox hallarda Ermənistan tərəfi bu təklifləri irəli sürməklə guya sülh istəyində olduqlarını nümayiş etdirir. Lakin onlar əvvəlcədən bilirlər ki, bu təkliflər qəbul oluna bilməz. Bütün bunlara baxmayaraq, proses davam edir... Ona görə səbirli, realist və son nəticədə Cənubi Qafqazda sülhə nail olunmasına sadiq olmaq lazımdır".

Prezident qeyd edib ki, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı geniş gündəliyə malikdir. Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Beləliklə, Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı Azərbaycan-Aİ əməkdaşlığında geriləmə olarsa, bu, təəssüf hissi doğurar. Dövlətimizin başçısı ümidvar olduğunu bildirib ki, rəsmi Bakı və Brüssel arasında ikitərəfli münasibətlər də Ermənistan-Azərbaycan gündəliyindən asılı olmayaraq inkişaf edəcək.

***

Prezident İlham Əliyev oktyabrın 14-də Danimarka Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ole Toftun, Estoniya Respublikasının Azərbaycandakı yeni səfiri Vayno Reynartın, Benin Respublikasının səfiri Akambi Andre Okunlola-Biaunun və Qətər Dövlətinin ölkəmizdəki yeni səfiri Məhəmməd Həməd Səad əl-Fuheyd əl-Hacirinin etimadnamələrini də qəbul edib.

# Mədəniyyət Nazirliyi də "TələbəPlus" layihəsinə dəstək verəcək

## Teatr, muzey və qoruqlarda tələbələr üçün xüsusi endirimlər olacaq

"TələbəPlus" layihəsi çərçivəsində Mədəniyyət Nazirliyi ilə Təhsilin İnkişafı Fondu (TİF) arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Sənədi mədəniyyət nazirinin müavini Səadət Yusifova və TİF-in idarə heyətinin sədri Elnur Nəsibov imzalayıblar.




Mədəniyyət nazirinin müavini Səadət Yusifova layihənin əhəmiyyətini yüksək qiymətləndirib. Qeyd edib ki, imzalanmış müqaviləyə əsasən, teatr, muzey və qoruqlarda tələbələr üçün xüsusi endirimlərin tətbiq olunması gözlənilir.

Elnur Nəsibov vurğulayıb ki, layihə bütün ölkə üzrə tələbələrin eyni güzəşt və endirimlərdən yararlanmalarını təmin etmək, eyni zamanda onların sosial həyatlarına dəstək göstərmək məqsədi daşıyır. Alış-veriş mərkəzlərində və tələbələrin ən çox istifadə etdiyi müxtəlif iaşə obyektlərində tələbələrə xüsusi güzəştlər edilməsi üçün TİF öz tərəfdaşları ilə birlikdə 200-dən artıq şirkətlə razılaşma əldə edib.

Qeyd edək ki, "TələbəPlus" kartı TİF, "Kapital Bank" və "Visa" beynəlxalq ödəmə texnologiyaları şirkətinin Azərbaycanın ali təhsil müəssisələrinin tələbələri üçün birgə həyata keçirdiyi layihədir. Layihə təhsilin bütün pillələri (bakalavriat, magistratura, doktorantura) üzrə təhsil alan tələbələri əhatə edir.

TİF-dən verilən məlumata görə, oktyabrın 15-dən layihə üzrə "Vahid tələbə kartı"nın verilməsinə başlanılıb. "Tələbə Plus" kartının ilkin mərhələdə 11 universitetdə (Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Texniki Universiteti, Bakı Mühəndislik Universiteti, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Türkiyə-Azərbaycan Universiteti, Fransa-Azərbaycan Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti) 170 min nəfərə verilməsi nəzərdə tutulub. Növbəti mərhələlərdə layihə bütün ali təhsil müəssisələrini əhatə edəcək.

# ICESCO Azərbaycanla daha sıx əməkdaşlıqda maraqlıdır

## Təşkilatla Heydər Əliyev Fondu arasında yeni memorandum imzalanıb

əvvəli səh. 1-də

Sənədi Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik imzalayıblar.

Layihənin məqsədi tələbə qızları lazımi resurslar, mentorluq və təhlükəsiz, dəstəkləyici mühitlə təmin etməkdir. Layihə çərçivəsində seminarların təşkili, məktəblərdə kompüter siniflərinin və kitabxanaların yaradılması da nəzərdə tutulur. 2025-ci ilin oktyabr ayınadək davam edəcək layihə Burkina-Fasonun bir sıra şəhərlərini əhatə edəcək.

Nümayəndə heyəti daha sonra ICESCO-nun Rabatdakı qərargahında yaradılan Peyğəmbər və İslam Sivilizasiyası Muzeyini ziyarət edib. Leyla Əliyeva muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

Qeyd edək ki, Azərbaycan 50-dən çox müsəlman dövlətinin təmsil olunduğu ICESCO-nun 1991-ci ildən üzvüdür. Təşkilatla münasibətlər Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın 2006-cı ildə ICESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi ilə daha da genişlənib. Fond ilə ICESCO arasında da sıx əməkdaşlıq mövcuddur. 2024-cü il üzrə "İslam dünyasının mədəniyyət paytaxtı" seçilən Şuşada bu ilin may ayında Heydər Əliyev Fondu və ICESCO arasında mədəniyyət, elm və təhsil, yeni texnologiyaların inkişafı sahələrində təcrübə mübadiləsinin aparılmasını, eyni zamanda, birgə layihələrin icra olunmasını nəzərdə tutan əməkdaşlığa dair imzalanan memorandum da əlaqələrin genişləndirilməsi istiqamətində növbəti addım olub.





# İslam Dünyası İrs Komitəsi sessiyasının iştirakçıları Ağdamda olublar

Xəbər verdiyimiz kimi, 8-9 oktyabr tarixlərində Şuşada ICESCO-nun İslam Dünyası İrs Komitəsinin 12-ci sessiyası keçirilib. Sessiyada Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən təqdim edilmiş "Şuşa Tarix-Memarlıq Qoruğu" və "Ağdam İmarət Kompleksi və Cümə məscidi" adlı iki nominasiyanın İslam Dünyası İrsinin İlkin Siyahısına daxil edilməsi barədə təklif də müzakirə olunub və müsbət qərar qəbul edilib.

Oktyabrın 10-da sessiya iştirakçıları Ağdama səfər ediblər. İmarət kompleksi və Cümə məscidini ziyarət edən ICESCO-nun Mədəniyyət və kommunikasiya sektorunun rəhbəri, Tunisin keçmiş mədəniyyət naziri Məhəmməd Zeynalabdin, İslam Dünyası İrsi Mərkəzinin rəhbəri Vebber Ndoro, İslam Dünyası İrs Komitəsinin sədri Məhəmməd əl-Aydarus, Özbəkistanın Mədəniyyət Araşdırmaları və Qeyri-Maddi Mədəni İrs üzrə Elmi-Tədqiqat İnstitutunun direktoru İroda Dadaşconova və digər qonaqlar hər iki məkanın bərpadan əvvəlki (işğal dövründəki) və sonrakı vəziyyəti ilə tanış olublar.

Qonaqlara İmarət kompleksində yerləşən Qarabağ xanları qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı, şair Xurşidbanu Natəvanın, Qarabağ xanlarının nəslindən digər görkəmli şəxslərin məzarları haqda məlumat verilib. İşğal dövründə erməni vandalizminin qurbanı olan qəbiristanlıq, İbrahimxəlil xanın türbəsi və Xurşidbanu Natəvanın dağıdılmış qəbirüstü abidələri göstərilib və italyan mütəxəssislərlə birgə aparılmış bərpa prosesi haqda danışılıb.

Ağdam Cümə məscidində də qonaqlar işğal dövründə vəziyyəti əks etdirən fotoşəkillərə baxıb, bərpa prosesi haqda məlumatlandırılıblar.

# Fərman onun fərmanıdır...

əvvəli səh. 1-də



Fərmanın muzeyin daimi ekspozisiyasında sərgiləncəyini bildirən Nailə Vəlixanlı Şah İsmayıl Xətainin vəfatının 500-cü ildönümünün tamam olduğu vaxtda belə bir tarixi sənədin Azərbaycana gətirilməsinin simvolik məna daşıdığını dedi.

AMEA-nın Tarix və Etnologiya İnstitutunun direktoru professor Kərim Şükürov Xətainin dövlətçilik fəaliyyəti, institutun elmi işlər üzrə direktor müavini Tofiq Nəcəfli sənədin mətni, məzmunu, Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi isə Xətainin yaradıcılığı ilə bağlı fikirlərini bölüşdülər.

Tədbirin sonunda Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi Qədim musiqi alətləri ansamblının (bədii rəhbər Xalq artisti Munis Şərifov, solist Əməkdar artist Nuriyyə Hüseynova) ifasında bədii-musiqili kompozisiya təqdim olundu.

**Lalə Azəri**

# Abdulla Şaiq ocağında "Füzuli rindü-şeydadır..."

əvvəli səh. 1-də

Füzuli yaradıcılığı haqqında məruzələr dinlənilib. ADPU-nun professoru, filologiya elmləri doktoru Yaqub Babayev şairin yaradıcılığını təhlil edib. Filologiya elmləri doktoru Təranə Turan Rəhimli "Kamal Talıbzadə və Məhəmməd Füzuli irsinə ədəbi-nəzəri münasibət", muzeyin böyük elmi işçisi Elminaz Məmmədli "Məhəmməd Füzuli yaradıcılığı Abdulla Şaiqin təhlilində" mövzularında məruzə ediblər.



Tədbirin bədii hissəsində Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrının aktyorları Məhəmməd Füzulinin "Leyli və Məcnun" əsəri əsasında hazırlanan (quruluşçu rejissor Əməkdar artist Nicat Kazımov) tamaşadan səhnə təqdim ediblər.

AMK nəzdində İncəsənət Gimnaziyasının şagirdi Nurlan Rzayev şairin obrazında lirik qəzəl söyləyib. AMK-nın 4-cü kurs tələbəsi Hüseyn Nağıyev kamançada Süleyman Ələsgərovun "Vətənimdir" romansını məharətlə ifa edib. İncəsənət Gimnaziyasının müəllimi Elnur İsmayılov və gimnaziyanın şagirdi Rəhimə Mənsimzadənin ifasında Füzulinin "Leyli və Məcnun" əsərindən pantomim səhnə göstərilib. Prezident təqaüdçüsü Leyla Muradzadə AMK-nın baş müəllimi Svetlana Əhmədovanın fortepianoda müşayiəti ilə Cahangir Cahangirovun "Füzuli" kantatasından bir parça ifa edib.

Sonda gənc xanəndə Yusif Cəfərbəyli AMK-nın tələbələri Cavanşir Rüstəmbəyli (tar) və Əli Rüstəmbəylinin (kamança) müşayiətində Füzulinin qəzəlləri ilə muğam parçası ifa edib.

Aktyorların və gənc istedadların çıxışları alqışla qarşılanıb.

# Məqsəd sirk sənətini inkişaf etdirmək və əməkdaşlıq əlaqələri qurmaqdır




Macarıstan, Rusiya və Belarusun məşhur sirklərinin rəhbərləri və mütəxəssisləri Azərbaycan tərəfinin dəvəti ilə ölkəmizə gəliblər. Səfərin məqsədi Bakı Dövlət Sirki ilə əməkdaşlıq əlaqələrinin qurulması, ölkəmizdə sirk sənətinin inkişaf etdirilməsidir.

### Mədəniyyət Nazirliyində üç ölkənin sirk rəhbərləri ilə görüş

Oktyabrın 14-də Mədəniyyət Nazirliyində qonaqlarla görüş keçirilib. Görüşdə Budapeşt Sirkinin baş direktoru, Mərkəzi Avropa Sirk Sənəti Assosiasiyasının prezidenti, Macarıstanın keçmiş mədəniyyət naziri Peter Fekete, "Svetnoy bulvarda" Moskva Nikulin Sirkinin bədii rəhbəri və baş direktoru Maksim Nikulin, Belarus Dövlət Sirkinin direktoru Vladimir Şaban, Kazan Sirkinin (Tatarıstan Respublikası – RF) direktoru Elmira Bulatova, Rusiyanın ən böyük tematik parkı – "Soçi Park"ın baş direktoru Lyudmila Kuznetsova iştirak ediblər.

Qonaqları salamlayan mədəniyyət naziri Adil Kərimli ölkəmizdə sirk sənətinin zəngin ənənələri olduğunu bildirib. Qeyd edilib ki, Bakı Dövlət Sirki uzun inkişaf yolu keçib və kollektiv Azərbaycandan kənarda da yaxşı tanınır.

Söhbət zamanı sirk rəhbərləri öz təcrübələrini bölüşüblər. Bakı Dövlət Sirki ilə əməkdaşlığın qurulması və qarşılıqlı birgə layihələrin icrası müzakirə olunub. Eyni zamanda Bakı Dövlət Sirkində aparılan təmir dövründə şəhərdə yüngül konstruksiya tipli sirkin – şapitonun qurulması ilə bağlı müzakirə aparılıb.

Görüşdə Bakı Dövlət Sirki yaradıcı heyətinin xarici ölkələrin müvafiq təhsil ocaqlarında ixtisaslaşması məsələləri barədə də fikir mübadiləsi aparılıb.

Sonda xatirə şəkli çəkdirilib.

### Mətbuat konfransı: "Əməkdaşlıqda maraqlıyıq"

Macarıstan, Rusiya və Belarusdan gələn qonaqların iştirakı ilə Bakıdakı Rus Evində mətbuat konfransı keçirilib. Tədbirdə Azərbaycanda müasir sirk sənətinin inkişafı, Bakı Sirkinin yenidən qurulması və şəhərə ən yaxşı beynəlxalq şou-proqramların cəlb edilməsi barədə söhbət açılıb.

"Həmkarlarla müzakirə zamanı qərara gəldik ki, Bakı Dövlət Sirki müasir və regionun ən yaxşısı olmalıdır. Hazırda vəziyyət qiymətləndirilir, hesablamalar aparılır, yeni sirk konsepsiyası müzakirə olunur. Bildiyiniz kimi, bütün bunlar müəyyən vaxt tələb edir. Sözügedən mərhələlər başa çatdıqdan sonra sirkimizin yeni dövrü başlayacaq", – deyə Bakı Dövlət Sirkinin direktor vəzifəsini icra edən Nahid Ağayev bildirib.

Onun sözlərinə görə, yaxın vaxtlarda paytaxtda sirk çadırı açılacaq: "Budapeşt Sirki bu işdə bizə köməklik göstərəcək, lazımi şəraiti təmin edəcək".

Moskva Sirkinin baş direktoru Maksim Nikulin Azərbaycanda sirk sənətinin inkişafında azərbaycanlı həmkarlarına dəstəyini ifadə edib. O, Bakı Dövlət Sirki ilə sıx əməkdaşlığa toxunaraq qeyd edib ki, kommersiya, nəqliyyat və yaradıcılıq sahələrində razılığa gəlmək və ortaq məxrəcə gəlmək imkanı var. İlkin mərhələdə məsləhətləşmələrin başladığını vurğulayan Maksim Nikulin deyib: "Bizim əsas məqsədimiz postsovet məkanında bütün sirklərin fəaliyyət göstərməsidir. Bakı Dövlət Sirki ilə əməkdaşlıq davam edir və biz onun gələcək inkişafına ümid edirik".

Budapeşt Sirkinin baş direktoru Peter Fekete Azərbaycan və Macarıstanın bir çox ortaq cəhətləri olduğunu bildirib. O əlavə edib ki, Bakı Dövlət Sirkində təmirdən sonra mübadilə proqramı çərçivəsində macar sənətçiləri yerli tamaşaçılar qarşısında çıxış edə biləcəklər.

Tatarıstanlı qonaq Elmira Bulatova isə diqqətə çatdırıb ki, Bakıda Kazan Dövlət Sirki nəzdində sirk məktəbinin iş prinsiplərinin əsas götürüləcəyi analoji məktəbin yaradılması məsələsi müzakirə olunur.

# "Vətənim Qərbi Azərbaycan" müsabiqəsinin yekun sərgisi

Oktyabrın 11-də Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi salonunda "Vətənim Qərbi Azərbaycan" mövzusunda müsabiqənin yekun tədbiri keçirildi. Tədbirdə Prezident Administrasiyasının şöbə müdiri, sənətşünaslıq üzrə elmlər doktoru Ədalət Vəliyev də iştirak edirdi.





Rəssamlar İttifaqının sədri Xalq rəssamı Fərhad Xəlilov tədbiri açaraq Qərbi Azərbaycan mövzusunda rəsm əsərləri və sənətkarlıq nümunələri yaratmağın, həmçinin kitablar yazmağın vacibliyini vurğuladı. O, müsabiqənin əhəmiyyətindən bəhs edərək sərgidə əl işləri yer alan sənətkarlara yeni uğurlar arzuladı.

Qərbi Azərbaycan İcması idarə heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli müsabiqənin keçirilməsində qarşıya qoyulan məqsəd və vəzifələrdən danışdı. Qeyd etdi ki, Qərbi Azərbaycan İcması və Azərbaycan Rəssamlar İttifaqı tərəfindən təşkil edilən müsabiqənin məqsədi Qərbi Azərbaycanın mədəni irs və tarixi abidələrinin dağıdılmasına diqqət çəkmək, onları təsviri sənət əsərlərində yaşatmaqdır. Müsabiqəyə təqdim edilən əl işlərində rəssamlar tərəfindən İrəvan xanlarının portretləri, Qərbi Azərbaycanın rəmzlərinə çevrilmiş tarix və memarlıq abidələri, ziyarətgahlar, türbələr, o cümlədən bölgənin təbiət mənzərələri təsvir olunub.

Çıxışlardan sonra münsiflərin qərarına əsasən, qaliblərin adları açıqlandı. Layihə rəhbəri, sənətşünas Qalib Qasımov diqqətə çatdırdı ki, müsabiqəyə təqdim olunan 61 sənət işi təhlil edilib.

Rəngkarlıq nominasiyası üzrə I yerə Reyhan Aslanova, II yerə Niyaməddin Qocayev, III yerə Seymur Fərmanlı, qrafika nominasiyası üzrə I yerə Nailə Sultanova, II yerə Nəsibə Əsgərova, III yerə Natiq Nəcəfzadə layiq görülüblər.

**S.Fərəcov**

# "İrəvanda yanan çıraq" sönməsin...

Azərbaycançılıq məfkurəsi, tarixi yurd yerimizə – Qərbi Azərbaycana qayıdış konsepsiyası kimi vacib məqamları özündə əks etdirən daha bir səhnə işi tamaşaçı ilə görüşdü. Yenə də İrəvan Dövlət Azərbaycan Dram Teatrının təqdimatında.

Oktyabrın 14-də İrəvan teatrı Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında özünün 143-cü mövsümünün açılışını etdi.

Nümayişdən öncə teatrın direktoru Əməkdar mədəniyyət işçisi İftixar Piriyev zəngin sənət yolu keçən İrəvan teatrı, onun keçmişi və bu günü barədə qısa məlumat verdi.

Bildirdi ki, milli-mənəvi dəyərlərimizi, maddi mədəni kimliyimizi, eləcə də bütöv Azərbaycan ideallarını daim rəhbər tutan, repertuarında daha çox bu mövzuda əsərlərə yer verən İrəvan teatrı bundan sonra da öz ənənəsinə sadiq qalacaq.

O daha sonra teatr kollektivinin müraciət mətnini oxuyaraq ömrünü İrəvan teatrına həsr edən görkəmli yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Hidayətin 80 illik yubileyi şərəfinə bu mövsümü rəmzi olaraq "Hidayət mövsümü" elan etdiklərini dilə gətirdi.

Sonra zala toplaşanlar Hidayətin "İrəvanda yanan çıraq" birhissəli mistik tarixi dramını izlədilər.

Tamaşada Səfəvi hökmdarı Şah İsmayıl Xətainin Rəvanqulu xanı İrəvan qalasının hakimi təyin edərkən, ona bağışladığı çırağın əbədi işığa çevrilməsi ilə bağlı



əmanət sözləri yazıçı Sultan Oğuzun xəyalında canlanır. Qara qüvvələrə qarşı qətiyyətlə mübarizəsi ilə erməni millətçilərinin ona qarşı düşmənçiliyinin cavabını sərt şəkildə verir, məkrli niyyətlərini rüsvay edir. Amma bütün bunlar asan başa gəlmir və yazıçı düşmən toruna düşsə də, mətanətini itirmədən məqsədinə nail olur. Birlik-bütövlük rəmzi olan İrəvanda yandırılmış çırağı sönməyə qoymur. Sözsüz ki, bu işdə ona dili, irqi, düşüncəsi, amalı bir həmvətənləri də kömək edir.



Müəllifin bir əsər vasitəsilə irəli sürdüyü mətləblər tamaşada təsvirin gücü ilə seyrçiyə çatdırılır. Məsələn, əsərin qəhrəmanı yazıçı Sultan Oğuz "İrəvan ulu əcdadlarımızın əzəldən binələnmiş olduğu tarixi yurd yeridir" həqiqətini öz əsərində əks etdirdiyindən ermənilər qisas almaq üçün onu gözdən salmağa başlayırlar. Onu erməni yazıçı kimi qələmə verərək əsərini SSRİ dövlət mükafatına təqdim edirlər. Yazıçı bir azərbaycanlı kimi buna etiraz edəndə də min cür hiyləyə əl ataraq onun əl-qolunu bağlamağa, fiziki və mənəvi məngənədə saxlamağa çalışırlar.

Səhnə əsəri milli-strateji düşüncəmizi, vətən yolunda apardığımız mübarizələrin əzmini, əzəli torpaqlarımıza – Qərbi Azərbaycana qayıdış konsepsiyasının məqsədini, Turan sərhədlərini tamaşaçıya çatdırır.

Səhnə işində aktyorlar Natiq Həziyev, Zəki Fətəliyev, Müdvər Nemətova, Əmrulla Nurullayev, Niyaməddin Səfərəliyev, Elnarə Heydərova, Samir Əliyev, Naibə Nemətova, Güney Əliyeva, Xədicə Məmmədova, Pərvin Dadaşova, Sevinc Bəxtiyar, Rövşən Cəfərov, Ramil Məmmədov rol alıblar.

Modern üslubda dinamik ritmdə – musiqi, hərəkət və rəqs üzərində qurulan tamaşanın quruluşçu rejissoru Gümrah Ömər, rejissor assistenti İmaməli İmaməliyev, musiqi tərtibatçısı Çingiz Xəlilovdur.

Boş məkanın dolğunluğu konsepsiyası ilə dekorasiyasız qurulan tamaşanın əsas konsepsiyasına uyğun rituallığın səhnəyə konservasiyası – xüsusən finalda şamlarla qurulan mizan maraqlı, ana ideyaya əsaslanan təsirli və çoxmənalı təsvir idi.

Tamaşa boyu sürətli keçidlər, aktyorların fərqli planlarda fərdi və kollektiv oyunundakı dinamika da yaxşı təsir bağışlayırdı.

**Həmidə**

# "Euronews"la əməkdaşlıq davam edəcək

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Euronews" telekanalı ilə səmərəli əməkdaşlığı var. Bu barədə oktyabrın 10-da nazirlikdə "Euronews" kanalının investisiya şirkətinin təsisçisi Pedro Davidin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə söhbət açılıb.



Qonaqları salamlayan mədəniyyət naziri Adil Kərimli nazirliklə "Euronews" kanalı arasında uzun illərə dayanan əməkdaşlıqdan məmnunluğunu bildirib. Qeyd olunub ki, "Euronews"da Azərbaycan xalqının çoxəsrlik mədəni irsini, o cümlədən xalça və muğam sənətlərini, adət-ənənələrini əks etdirən videoçarxların hazırlanması, ayrı-ayrı mədəniyyət layihələri, xüsusilə Şuşada keçirilən "Xarıbülbül" musiqi festivalı ilə bağlı süjetlərin yayımlanması təqdirəlayiqdir.

Söhbət zamanı gələcək əməkdaşlığın perspektivləri müzakirə edilib. Azərbaycan mədəniyyətinin müxtəlif sahələrinə dair sənədli filmlərin lentə alınaraq beynəlxalq auditoriyaya təqdim edilməsinin əhəmiyyəti vurğulanıb.

Pedro David qəbula görə təşəkkürünü bildirib, telekanalın Azərbaycan Mədəniyyət Nazirliyi ilə əməkdaşlığının bundan sonra da uğurla davam edəcəyinə inandığını deyib.

Görüşün sonunda qonaqlara hədiyyələr təqdim olunub, xatirə şəkilləri çəkdirilib.

# İzmirdə və İstanbulda "Azərbaycan mədəniyyəti və sənəti günləri"




*əvvəli səh. 1-də*

Tədbirə Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstandan ədəbiyyatşünaslar, milli mətbuat tarixinin tədqiqatçıları qatılıb.

Ege Universiteti Ədəbiyyat fakültəsinin dosenti Yılmaz Özkaya, universitetin rektorunun müavini professor Mehmet Ersan və başqa çıxış edənlər Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" və Ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamlarının işığında möhkəmlənən qardaşlıq əlaqələrindən söz açıblar. Natiqlər ölkələrimiz arasındakı mədəni-ədəbi əlaqələrdən danışıb, ortaq miraslarımız arasında ədəbiyyatımızın xüsusi yeri olduğunu qeyd ediblər.

Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov Türk dünyasında mədəni-ədəbi əlaqələrdə maarifçi ziyalılarımızın rolundan danışıb, simpoziumun bu istiqamətdə töhfə olduğunu bildirib.

Sonra panel iclasda mövzu üzrə məruzələr dinlənilib.

***

İzmirdə "Azərbaycan mədəniyyəti və sənəti günü" çərçivəsində Mötbe Mədəniyyət Mərkəzində sərgi açılıb. Sərgidə milli suvenirlərimiz, rəsm əsərləri, milli geyimlər təqdim olunub. Bakı Milli Geyim Evinin kolleksiyasından tarixi Azərbaycan geyimlərinin nümayişi də olub.

Sonra Mötbe Mədəniyyət Mərkəzində konsert proqramı təqdim edilib.

"Azərbaycan mədəniyyəti və sənəti günləri" oktyabrın 17-də İstanbulda davam edəcək. İstanbulun Atatürk Mədəniyyət Mərkəzində Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasından muzeyin mütəxəssisi, Azərbaycan Rəssamlar İttifaqının üzvü Elnarə Rəsulovanın əl işi olan xalçaların sərgisi açılacaq.

Atatürk Mədəniyyət Mərkəzinin sərgi zalında Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya şöbəsinin müdiri dosent Gülzadə Abdulovanın kolleksiyasına aid geyimlər sərgilənəcək, Azərbaycan xanımlarının tarixi geyimləri podiumda təqdim olunacaq.

Tədbir çərçivəsində azərbaycanlı sənətçilərinin iştirakı ilə konsert proqramı da nəzərdə tutulur.

# Qusarda "Peşəkar teatr dərsləri"

Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) təşkilatçılığı ilə 3-11 oktyabr tarixlərində Qusar Dövlət Ləzgi Dram Teatrında həyata keçirilən "Peşəkar teatr dərsləri" layihəsi başa çatıb.



Layihə çərçivəsində ilk ustad dərslərini Əməkdar incəsənət xadimi, rejissor Bəhram Osmanov və teatrşünas Dağlar Yusif keçiblər. Təlim iştirakçılara təcrübə mübadiləsi, ixtisasartırma və aktyorluq potensialını inkişaf etdirmək imkanları yaradıb.

Peşəkar teatr dərslərində aktyorların tamaşaçı ilə ünsiyyəti, rejissorla işləmək bacarığı, səhnə sərbəstliyi və texnikası, həmçinin pyesin mənimsənilmə qabiliyyəti, səhnə ritmika və plastikası, nitq mədəniyyəti kimi keyfiyyətləri təkmilləşdirilib.

Layihənin əsas məqsədi region teatrlarında sənətin peşəkar əsaslarının tədrisi, yaradıcı, nəzəri-praktik təcrübə mübadiləsi ilə peşəkarlıq səviyyəsinin artırılması və fəal yaradıcı mühitin formalaşdırılmasıdır.

Layihə çərçivəsində digər bölgə teatrlarında da bu kimi tədbirlərin təşkili nəzərdə tutulur.

# Növbəti vətəndaş qəbulu Naxçıvanda keçirilib

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli oktyabrın 11-də Naxçıvan şəhərində vətəndaşları qəbul edib.



Qəbuldan əvvəl nazir Ümummilli liderin Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyinin qarşısında ucaldılmış abidəsi önünə tər çiçək dəstəsi qoyaraq əziz xatirəsini ehtiramla yad edib.

Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyində keçirilən qəbulda Adil Kərimli Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan vətəndaşların müraciətlərini dinləyib.

Vətəndaşlar mədəniyyət sahəsi ilə bağlı layihələr, təkliflər, məşğulluq və digər məsələlərlə bağlı müraciətlərini diqqətə çatdırıblar.

Mədəniyyət naziri vətəndaşların xahiş və təkliflərini dinləyərək qaldırılan hər bir məsələnin operativ şəkildə araşdırılması, qanunvericiliyə uyğun həlli ilə bağlı addımlar atılacağını bildirib.

Qəbulda iştirak edən şəhid ailələri və qazilərin qeyd etdikləri məsələlərə xüsusi diqqətlə yanaşılması, vaxtında və obyektiv baxılması ilə bağlı tapşırıqlar verilib.

***



Qəbuldan sonra nazir Naxçıvan şəhərində dahi Azərbaycan şairi və mütəfəkkiri Hüseyn Cavidin Ev-Muzeyini, Hüseyn Cavid Məqbərəsini və Bəhruz Kəngərli Muzeyini ziyarət edib. Muzeylərin və məqbərənin fəaliyyəti haqqında məlumat verilib.

Daha sonra muxtar respublikanın Şahbuz rayonuna gedən Adil Kərimli Mədəniyyət Sarayı, Tarix-Diyarşünaslıq Muzeyi və Şahbuz şəhərindəki "Araz" kinoteatrına baxış keçirib.

Müəssisələrlə tanışlıq zamanı bildirilib ki, ölkəmizdəki bütün mədəniyyət və bədii təhsil ocaqlarına vahid yanaşma mövcuddur. Müəssisələrdə fəaliyyətin müasir tələblər səviyyəsində qurulması diqqətdə saxlanılmalıdır.

Bundan əlavə, muxtar respublikaya səfər çərçivəsində Azərbaycan Respublikası mədəniyyət nazirinin müşavirləri Cahangir Səlimxanov, Oleq Əmirbəyov və Cəsarət Valehov müvafiq sahələr üzrə Naxçıvan şəhərindəki müəssisələr və kollektivlərlə tanış olublar.

# Gəncəli kuklaçılar Qazaxıstana festivala gedirlər

Mədəniyyət Nazirliyinin dəstəyi ilə Gəncə Dövlət Kukla Teatrının yaradıcı kollektivi 21-25 oktyabr tarixlərində keçiriləcək II Almatı Beynəlxalq Kukla Teatrları Festivalında (Qazaxıstan) iştirak edəcək.



Teatr festivala Rəsul Rzanın "Ana qaz" şeirinin motivləri əsasında hazırlanmış eyniadlı tamaşa ilə qatılacaq.

Festivala Azərbaycanla yanaşı, Türkiyə, İtaliya, Çin, Rusiya, Bolqarıstan, Polşa, İran, Özbəkistan kukla teatrları da dəvət alıb.

Tamaşanın quruluşçu rejissoru və musiqi tərtibatçısı Gəncə Dövlət Kukla Teatrının baş rejissoru Şamil Məmmədli, xoreoqrafı Əməkdar artist Fərmail Paşayev, quruluşçu rəssamı Məhəmməd Hacıyevdir. Personajları Zülfiyyə Əliyeva, Şamil Məmmədli, Nahidə Namazova, Səməd Xanəhmədov, Yeganə Məmmədova, Elmar Vəliyev, Nərmin Şərifova və Məhəmməd Hacıyev canlandırırlar.

# Ağstafalı sənətsevərlər Bakı Bələdiyyə Teatrının tamaşasına baxıblar

Ağstafa rayon Heydər Əliyev Mərkəzində "Ana tarla" tamaşası nümayiş olunub. Bakı Bələdiyyə Teatrının təqdim etdiyi tamaşa görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun eyniadlı povestinin motivləri əsasında hazırlanıb.



Xalq artisti Mərahim Fərzəlibəyovun səhnələşdirdiyi və quruluşçu rejissoru olduğu tamaşa doğma yurda sadiq olan sadə insanlardan bəhs edir. Səhnə əsərində İkinci Dünya müharibəsində insanların yarımçıq qalmış taleləri, məhv edilmiş arzu və istəkləri, eyni zamanda insanlığa, gələcəyə ümidləri əks olunur.

Tamaşa ağstafalılar tərəfindən böyük rəğbətlə qarşılanıb. Nümayişin sonunda aktyorlara gül dəstələri təqdim olunub, xatirə şəkilləri çəkdirilib.

Səhnə əsərini izləyənlər sırasında rayonun icra başçısı Seymur Orucov, millət vəkili Azər Əmiraslanov, Qazax-Tovuz RMİ-nin rəisi vəzifəsini icra edən Nail Məmmədov, rayondakı digər dövlət qurumlarının rəhbər şəxsləri də olublar.

# "Mən Arazda şaxələnən çinardım..."

## Məmməd Arazın xatirəsi ev-muzeyində anılıb

Xalq şairi Məmməd Arazın (1933–2004) anadan olmasının 91 illiyi münasibətilə şairin Şahbuz rayonunun Nursu kəndində yerləşən ev-muzeyində tədbir keçirilib.

Muzeyin direktoru Əzizə Süleymanova bildirib ki, Məmməd Araz Azərbaycan poeziyasında məxsusi yeri olan söz ustadıdır. Şairin yaradıcılıq nümunələri bütün dövrlərdə öz dəyərini qoruyub saxlayacaq, yeni nəsillərə vətənsevərlik ruhu aşılayacaq.

Naxçıvan Dövlət Universiteti Tarix-filologiya fakültəsinin dekanı dosent Arif Ağalarov diqqətə çatdırıb ki, Məmməd Araz yaradıcılığında ana dilimizin zənginliyi, dərinliyi, əlvanlığı öz təzahürünü tapır.

Digər çıxışlarda vurğulanıb ki, Məmməd Araz müasir dövr Azərbaycan lirikasının poetik zirvəsini fəth edən və bu zirvədə əbədi yaşamaq haqqı qazanan qüdrətli şair, publisist, mütəfəkkirdir.

Məmməd Arazın yaxın qohumları Cavanşir Məmmədov və Nazim Abbasov şairlə bağlı xatirələrini bölüşüblər.



Bədii hissədə Naxçıvan Dövlət Universiteti Tarix-filologiya fakültəsi tələbələrinin və Nursu kənd tam orta məktəbi şagirdlərinin ifasında şairin şeirləri qiraət olunub.

Sonda tədbir iştirakçıları muzeyin ekspozisiyası ilə tanış olublar.

# Bölgələrdən müxtəlif səpkili xəbərlər

Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin (RMİ) rəisi Bəxtiyar Qılıncov, rəis müavini Dadaş Muxtarlı və idarə aparatının əməkdaşları şəhidlər Zabil İbadzadə, İmaməli Əhədzadə, Mehman Şirvanov və Araz İbadlının ailələrini ziyarət ediblər.

Görüşlər zamanı şəhidlərin döyüş yolundan söhbət açılıb, ailələrin problemləri dinlənilib. Şəhid ailələrinin üzvləri göstərilən diqqətə görə minnətdarlıqlarını bildiriblər.

***

Astara rayon Mərkəzi Kitabxanasında Uşaq şöbəsinin təşkilatçılığı ilə ekologiyanın qorunmasına dair "Ekologiya sağlam həyat tərzidir" mövzusunda tədbir keçirilib. Ziya Bünyadov adına şəhər 2 nömrəli tam orta məktəbin müəllimləri və VI sinif şagirdlərinin iştirak etdiyi tədbirdə ekologiyanın və ətraf mühitin təmiz saxlanılmasının sağlam yaşamaq üçün vacib olduğu vurğulanıb. Mövzu ilə bağlı sərgiyə baxış olub.

***





Masallı rayon Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə "Şəkərbala" uşaq bağçasında kiçikyaşlı oxucular üçün "nağıl saatı" keçirilib. Uşaq şöbəsinin əməkdaşı Esmira Ağarzayevanın təqdimatında oxunan "Tülkü və çəpiş" adlı nağıl uşaqlar tərəfindən maraqla qarşılanıb. Balacaların nağıl personajları haqqında sualları cavablandırılıb.





***

Yardımlı rayon Heydər Əliyev Mərkəzində "Vətən müharibəsinin 15-ci günü" adlı tədbir təşkil edilib. Çıxışlarda Zəfər tariximizdən söz açılıb. Tədbir iştirakçıları Vətən müharibəsinin ildönümünə həsr edilən "Yaşayan qəhrəmanlar" adlı sərgi və Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı eksponatlarla tanış olublar.

***

Lerik Rayon Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzi Lənkəran-Astara regional nümayəndəliyinin birgə əməkdaşlığı ilə Valeh İbrahimov adına İnteqrasiya təlimli internat tipli gimnaziyasında "Beynəlxalq qızlar günü" (11 oktyabr) münasibətilə maarifləndirici görüş keçirilib.

Əvvəlcə qısametrajlı film nümayiş etdirilib. Əlamətdar günün tarixi haqqında məlumat verilib. Bildirilib ki, Türkiyənin təklifi ilə BMT tərəfindən 11 oktyabr tarixi "Beynəlxalq qızlar günü" elan edilib. BMT Baş Assambleyasında qəbul edilən qərar Türkiyə, Kanada və Peru tərəfindən hazırlanan qətnamə əsasında verilib. 2012-ci ildən qeyd edilən günün məqsədi qız uşaqlarının hüquqlarının qorunmasına diqqət çəkmək, gender bərabərliyini təşviq etmək və qızların üzləşdiyi problemlərə diqqət yetirməkdir.

Sonda məktəbli qızlar məqsəd və hədəflərindən danışaraq müzakirələr aparıblar.

***

Salyan Dövlət Rəsm Qalereyası nəzdində fəaliyyət göstərən "İncə Art" rəsm dərnəyi və "Nuray" art-studiyasının üzvləri üçün etüd günü təşkil edilib. Rəssamlar Coşqun Məmmədov və Aynur Art etüd və eskizlərin hazırlanması barədə dərnək üzvlərinə məlumat veriblər. Sonra uşaqlar Salyan şəhərinin mərkəzindəki XIX əsr abidəsi olan Cümə məscidinin etüd və eskizini çəkiblər.

**Hazırladı: N.Məmmədli**

# Ağcabədidə Rəşad Məcidin yubileyi qeyd olunub

Azərbaycan Mətbuat Şurasının sədri Əməkdar mədəniyyət işçisi, yazıçı, publisist və şair Rəşad Məcidin 60 illiyi münasibətilə doğulduğu Ağcabədi rayonunda ədəbi-bədii tədbir keçirilib.

Yaqub Məmmədov adına Ağcabədi Mədəniyyət Mərkəzində keçirilən tədbirdə əvvəlcə yubilyarın yaradıcılığına həsr olunmuş sərgiyə baxış olub. Azərbaycan Milli Kitabxanasının təşkil etdiyi sərgidə Rəşad Məcidin kitabları, habelə redaktoru olduğu nəşrlər, haqqında yazılan kitablar nümayiş etdirilib.

Mərkəzin konfrans zalında Rəşad Məcidin ömür yolundan bəhs edən videoçarx nümayiş olunub.



Tədbirin aparıcısı millət vəkili, yazıçı-publisist Aqil Abbas açılış sözündən sonra yubilyarı səhnəyə dəvət edib.

Milli Kitabxananın direktoru professor Kərim Tahirov, qabaqcıl maarif xadimi Ədalət Hüseynov, Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, "Aran" qəzetinin redaktoru Məhsəti Musa çıxış edərək Rəşad Məcidin yaradıcılığından, ictimai fəaliyyətindən söz açıb, təbriklərini çatdırıblar.

Yubilyara İcra Hakimiyyətinin fəxri fərmanı təqdim olunub.

Rəşad Məcidin Ağcabədidə çıxan "Sürət" (hazırkı "Aran") qəzetində 1982-ci ildə çap olunmuş ilk şeirinin məktəbli Nəimi Ağayev tərəfindən səsləndirilməsi maraqla qarşılanıb.

Yubilyarın sözlərinə bəstələnən mahnılar və digər musiqi nömrələri ifa olunub.

Sonda çıxış edən Rəşad Məcid tədbirin təşkilatçılarına və iştirakçılara minnətdarlığını bildirib.

# Xalq şairi Sumqayıtda oxucularla görüşüb

Abşeron-Xızı və Şərqi Zəngəzur RMİ-lərin birgə təşkilatçılığı ilə Xalq şairi Vahid Əzizin Sumqayıtda oxucularla görüşü olub. Tədbir "Onlar bir incidir" layihəsi çərçivəsində reallaşıb.



"Kimyaçı" Mədəniyyət Sarayında keçirilən görüşdə nəğməkar şairin poeziyasının vurğunları ilə yanaşı, Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirin aparıcısı Əminəxatun Tərlan şairin həyat və yaradıcılığı barədə məlumat verib. Qeyd olunub ki, bədii yaradıcılığa 1967-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində çıxan ilk şeiri ilə başlayan şair dövri mətbuatda müntəzəm çıxış edir. Şairin sözlərinə bəstələnmiş mahnıların diski buraxılıb. Onun "Mən küləyi görürəm", "Aylı pəncərə", "İllərin baharı", "Əllərimin kölgəsi", "Dözmək olmur", 4 cilddən ibarət "Şeirlər, poemalar, tərcümələr, publisistika" adlı kitabları oxucular tərəfindən maraqla qarşılanır.

Vahid Əziz bəzi şeirləri ilə bağlı xatirələrini bölüşüb, yeni qələmə aldığı bədii nümunələrini oxuyub, iştirakçıların suallarını cavablandırıb.

Tədbirdə hər iki regional idarənin mədəniyyət müəssisələrinin əməkdaşları tərəfindən rəngarəng musiqi nömrələri ifa olunub.

# Multikultural dəyərlərin qorunması və təbliği ilə bağlı treninq

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) multikultural dəyərlərin qorunması, təbliği və inkişaf etdirilməsi istiqamətində layihələri davam etdirir.

Quba Soyqırımı Memorial Kompleksi və "Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğunun müraciətinə əsasən, həmin qurumların əməkdaşları üçün treninq təşkil olunub.

Məkəzdən bildirilib ki, oktyabrın 7-11-də onlayn qaydada keçirilən treninq çərçivəsində BBMM-in icraçı direktoru Rəvan Həsənov, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, BBMM-in İnformasiya təminatı və sənədlərlə iş şöbəsinin müdiri Yadigar Məmmədli, Analitika şöbəsinin müdiri Rəşad İlyasov, Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı Əli Fərhadov, Azərbaycan Dillər Universitetinin Fəlsəfə və ictimai elmlər kafedrasının müəllimi Leyla Hacıyeva, BBMM-in baş məsləhətçisi Araz Qurbanov, aparıcı məsləhətçi Billurə Aslanova, məsləhətçi Tahirə Ələsgərova mühazirə oxuyublar.

"Azərbaycan multikulturalizmi fənninin predmeti və əhəmiyyəti", "Dünya ölkələrində multikulturalizm modelləri", "Azərbaycanın ictimai-fəlsəfi fikir tarixində tolerantlıq və multikulturalizm ideyaları", "Çoxkonfessiyalılıq və Azərbaycan Respublikasının multikulturalizm siyasəti", "Azərbaycançılıq və multikulturalizm" və digər mövzularda mühazirələr təqdim edilib.

Treninq iştirakçılarını maraqlandıran suallar cavablandırılıb. Sonda iştirakçılara sertifikatlar təqdim olunub.

# Teatrların fəaliyyəti, yaradıcılıq məsələləri və qayğıları diqqət mərkəzindədir

## Mədəniyyət naziri Kukla teatrı və "Yuğ" teatrının kollektivləri ilə görüşüb



Mədəniyyət naziri Adil Kərimli oktyabrın 10-da Azərbaycan Dövlət Kukla Teatrında olub, kollektivlə görüşüb söhbət edib.

93 illik zəngin keçmişə malik, milli kuklaçılıq ənənələrini layiqincə yaşadan sənət ocağı haqqında söz açan nazir dövlət teatr müəssisələri ilə ilk görüşün buradan başlamasının təsadüfi olmadığını deyib. Bildirilib ki, teatr tamaşa-plan göstəriciləri, repertuar siyasəti, daxili və xarici qastrollar, beynəlxalq festivallarda iştirak baxımından öz fəaliyyəti ilə seçilir.

Qarşıda duran məqsəd və vəzifələrdən danışan Adil Kərimli yeni dövrün çağırışlarının teatrların fəaliyyətində nəzərə alınmasının əhəmiyyətini qeyd edib. Vurğulanıb ki, çağdaş sənət meyilləri, dünya teatr prosesinə inteqrasiya ilə yanaşı, milli ənənələrə əsaslanan repertuar siyasəti qurulmalıdır. Eyni zamanda istedadlı, ixtisaslı gənclərin sənət ocağına cəlb edilməsi, yaradıcı və texniki heyətin xarici ölkələrdə təkmilləşmə kurslarında, ustad dərslərində iştirakı da diqqətdə saxlanılmalıdır.

Daxili qastrol marafonunun bundan sonra da davam etdirilməsinin vacibliyini qeyd edən nazir kollektivə yeni yaradıcılıq uğurları arzulayıb.

Azərbaycan Dövlət Kukla Teatrının direktoru Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadə səmimi görüşə, kollektivin fəaliyyəti haqqında xoş sözlərə görə nazirə təşəkkürünü bildirib.

Direktor fəaliyyətlərində Mədəniyyət Nazirliyinin diqqət və qayğısını daim hiss etdiklərini vurğulayıb. O, ölkədəki digər dörd kukla teatrı (Gəncə, Salyan, Qax, Naxçıvan) üçün mərkəz funksiyasını da yerinə yetirən Azərbaycan Dövlət Kukla Teatrının statusu ilə bağlı məsələni qeyd edib, eləcə də ömrü şırma arxasında keçən kuklaçıların əməyinin qiymətləndirilməsini arzuladıqlarını diqqətə çatdırıb.

Teatrın mütəmadi şəkildə yüksək kateqoriyalı beynəlxalq festivallarda iştirak etdiyini deyən direktor vaxtilə ölkəmizdə keçirilən "Cırtdan" Bakı Beynəlxalq Kukla Teatrları Festivalı formatında yeni bir layihənin həyata keçirilməsinin əhəmiyyətli olacağını bildirib.



Teatrın yaradıcı heyət üzvləri də çıxış edərək fikirlərini bölüşüb, arzu və təkliflərini diqqətə çatdırıblar.

***

Mədəniyyət naziri Adil Kərimli həmin gün Azərbaycan Dövlət Yuğ Teatrının kollektivi ilə də görüşüb.

Azərbaycan Dövlət Kukla Teatrı binasında keçirilən görüşdə nazir "Yuğ" teatrının Azərbaycan mədəniyyətində xüsusi yeri olduğunu qeyd edib. Bildirilib ki, teatr maraqlı tamaşaları, həyata keçirdiyi layihələrlə yanaşı, xaricdə də ölkəmizi uğurla təmsil edir.

Azərbaycan Dövlət Yuğ Teatrının direktoru Əməkdar mədəniyyət işçisi İslam Həsənov kollektivlə görüşə gəldiyi üçün nazirə təşəkkür edib.

Direktor teatrın illərdir bina problemi yaşadığını diqqətə çatdırıb. Qeyd olunub ki, 1989-cu ildən studiya kimi, 1992-ci ildən dövlət teatrı kimi fəaliyyət göstərən "Yuğ" teatrı 2016-cı ildən etibarən fəaliyyətini Azərbaycan Dövlət Kukla Teatrının binasında davam etdirir. Məkan problemi yaradıcı fəaliyyətə və davamlı iş prosesinə mənfi təsir göstərir.

Teatrın baş rejissoru Mikayıl Mikayılov, Xalq artisti Məmmədsəfa Qasımov, Əməkdar artistlər Sonaxanım Mikayılova, Gülzar Qurbanova, aktyor və rejissor Əbdülqəni Əliyev çıxış edərək teatrın uğurlarından, yaradıcılıq prosesindən, eləcə də mövcud problemlərdən danışıblar.

Adil Kərimli teatrın bina məsələsinin diqqətdə olduğunu və bu problemin qısa zaman ərzində həll ediləcəyini vurğulayıb. O, həmçinin nazirliyin teatr sənətinin inkişafına yönəlmiş təşəbbüslərə, yaradıcı təkliflərə dəstək olmağa hazır olduğunu bildirib.

Nazir görüşün sonunda kollektivə fəaliyyətində uğurlar arzulayıb.

# "İlahi, sən mənə quş dili öyrət..."

Deyən şairlə görüşə həyəcansız getmək olardı? Üstəlik, əgər onun şeirləri hər misranı duyaraq tamaşaçı ilə görüşdürən səhnəmizin bənzərsiz aktyorunun ifasında səslənəcəkdisə...

Yağışlı payız axşamı (13 oktyabr) "Bu payız gecəsi boş küçələri, Gəzirəm kimsəsiz bir uşaq kimi" ("Qəfil zəng") çağırışlı şairlə görüşə həsrətini vüsala çevirən xeyli oxucu axışmışdı. Özü də adama elə gəlirdi ki, onlar da mənim kimi dilində ilişən "Kimisi nəğməli-sazlı, Kimisi başıqapazlı, Kimisi paltar-palazlı, Kimisi çılpaq boğulur" deyə-deyə ("Boğulur") gəlmişdi...

Bakı Musiqi Akademiyası nəzdində Opera studiyasının qapısı önündəki izdiham bir bisənizə necə xoş mənzərə idi. Deməli, hələ də ümid var. Heç bilirsən nəyə, kimə?!

*"Qəfil gün doğsa bir gecə,*
*Dünya düm ağ işıqlansa;*
*Şəhər-şəhər, küçə-küçə,*
*Otaq-otaq işıqlansa"...*

arzulu, etirafli, ehtimallı, nisgilli adamlara.

Heç şübhəsiz, Xalq şairi Ramiz Rövşənlə görüş başdan-başa şeir axşamı idi.

Xalq artisti Nurəddin Mehdixanlı kükrəyişində, arabir ona qoşulan Ramiz Rövşən şeirlərinin titrək səsindən qopan sevgi etiraflarında, sevdiklərinin seçkin misralarına bələnən duyğu izharında qanad açdı bütün hisslər.

Müəllif özü də onlara qoşulub şeir dedi, ünvanladığımız suallara təbəssümünü qatdığı müdrik cavabları inci dənələri kimi düzdü qaranlıq zaldan sevgi ilə ona baxan gözlərə. Beləcə, dünyaya üsyanını anasına giləylə başlayan,




*"Şirin-şirin yuxudaydıq,*
*Bir zalım oyatdı bizi.*
*Anaların qucağından*
*Bu dünyaya atdı bizi"*

deyən şair taleyinə gülümsəməkdən başqa çarəsi olmayan adamların görünməyən alovuna sanki su səpdi.

Nurəddin Mehdixanlı dostu Ramiz Rövşən haqqında özünəməxsus oxucu-tamaşaçı rəyini də bölüşdü. Bildirdi ki, zəmanəmizin böyük şairi özünəməxsus poetikası ilə cəmiyyətin, həyatın, Yaradanın "xəritə"sini ustalıqla çəkərək ilahi bir rabitəyə nail olub. Ramiz Rövşəni daha çox məhəbbət şairi, insan hisslərinin mahir ifadəçisi kimi tanıdığını dedi, dərin fəlsəfi şeirlərindən ibarət bir çələng təqdim etdi, onun poetik ifadələrinin rəngarəngliyinə, bənzərsizliyinə heyranlığını dilə gətirdi.

Söz-sənət gecəsi üçün "Ramiz Rövşənin poeziya dünyası" adı təsadüfən seçilməmişdi. Adının haqqını verən şeir axşamında, özünə də dediyim kimi, "statistika aparılsa, bəlkə də ən çox qadınların sevdiyi" və özünün də dediyi kimi "qadın ruhundan yaxşı anlayan" şairin poeziya gecəsində məhəbbət, ayrılıq, həsrət, vüsal... şeirləri səsləndi.

Beləcə, dinləyicilər gah

*"Bölünsəm, dərdim də*
*bölündü bəlkə,*
*Hər dərdim yüz tikə,*
*min tikə oldu.*
*Bir dərdim qalmadı*
*özümdən yekə,*
*Bütün dərdlərimdən mən*
*yekə oldum"*

deyən şairə qoşulub "Gəl, əl-ələ tutub gedək, Gedək biz olmayan yerə" getmək üçün səf tutdular, gah da "Yenə də lənət şeytana, Yenə də Allaha şükür" deyib kirildilər, barışdılar.

Görüş boyu hərdən "Bağışla", "Mən küsüb gedirəm" çağırışları boy verdi, hərdən də payıza inad ovqatımız "Çiçəklər doğulur bu yaz gecəsi, Bu yaz gecəsində ölməyə nə var?"a kökləndi.

Sükuta qərq olaraq ona dikilən nəzərlərdən, sonra o sükutu pozan sürəkli alqışlardan xoşhal olan şair "Bu təkcə mənə yox, poeziyamıza olan bir sevgi, diqqətdir. Əgər burada müəyyən rolum varsa, çox xoşbəxtəm. Nurəddin bəyin də dediyi kimi, biz ədəbiyyatımızı, dilimizi, mədəniyyətimizi, mənəviyyatımızı qoruyub saxlamalıyıq.

Arada cavan şairlər mənə "Niyə kiminsə haqqında tənqid demirsiniz" sualını verirlər. Bilirsiniz də, gənclik döyüşkənlik, mübarizədir. Mən də deyirəm şairlə, şeirlə döyüşənlərlə mübarizə aparmışam, ona mane olanlarla döyüşmüşəm. Amma şairlərlə yox. Həmişə demişəm, mən özümə qədərki bütün şairlərə borcluyam. Kağız dövrü bitsə də, geniş virtual aləm var. Deməli, meydan da, təbliğat üçün vasitələr də genişdir. Gərək istedadlı gənclər dayanmasınlar. Bu sevgi, bu münasibət göstərdi ki, yazmağa hələ də səbəb var" deyib təşəkkür etdi.

Sonra bir neçə saniyəlik zala göz gəzdirən şair

*"Gündən-günə, get-gedə*
*Azalmaqdır qocalmaq.*
*Daha çöldə, küçədə,*
*Adamların içində*
*Az olmaqdır qocalmaq"*

deyib köks ötürdü, sonra ucadan güldü. Sanki öz-özlüyündə qocalığa etiraz edirdi və yenə söz davasına çıxdı. Sonunda qəlibin özü olacağı söz davasına.

Yerdən tamaşaçıların "Yox, siz qocalmamısınız. Elə deməyin" etirazına cavab olaraq şeriyyət dolu payız axşamına

*"Sevənlər tutdu dünyanı,*
*Sevdi, unutdu dünyanı,*
*Mən də sevdim, bu dünyanın*
*Ən gözəl sözünü aldım.*
*Aldım sözün ağrısını,*
*Yavanını, yağlısını,*
*Neçə sözün əyrisini*
*Düzəldib, düzünü aldım.*
*Məni də yola saldı söz,*
*Mən getdim, sizə qaldı söz,*
*Yenə təptəzə qaldı söz,*
*Mən sözün tozunu aldım"*la nöqtə qoydu.

**Həmidə**

# "Füzuli günləri" layihəsində "Çölün ruhu"



Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş "Füzuli günləri" layihəsi çərçivəsində "Çölün ruhu" adlı xor musiqisi konserti keçirilib. Konsert oktyabrın 11-də Türk Mədəniyyəti və İrsi Fondunun dəstəyi ilə gerçəkləşib.

Konsertdən əvvəl Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova çıxış edərək dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin yubileyinə daha bir sənət töhfəsi verməkdən məmnun olduqlarını deyib.

Musiqili gecədə Qaziza Jubanova adına Aktobe Vilayət Filarmoniyasının Qazax Kamera Xoru (bədii rəhbər Merbol Kuspanov) və Azərbaycan Dövlət Xor Kapellası (bədii rəhbər və baş dirijor Xalq artisti Gülbacı İmanova) çıxış edib.

Proqramda Azərbaycan və Qazaxıstan bəstəkarlarının əsərləri və xalq mahnıları səsləndirilib.

***



"Çölün ruhu" adlı xor musiqisi konserti Türk Mədəniyyəti və İrsi Fondunun təşkilatçılığı ilə Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında da təqdim edilib.

# "Nəsillərin görüşü"



əvvəli səh. 1-də

Fərhad Hacıyev 1957-ci ildə Azərbaycan Dövlət İncəsənət Muzeyində ilk bərpa emalatxanasını açıb. 80-ci illərdə emalatxanaya mərkəz statusu verilib və bədii irsin gələcək nəsillərə çatdırılmasında mühüm rol oynayan bərpaçılar burada bir araya gəliblər.

Təsadüfi deyil ki, Elmi Bərpa Mərkəzi ənənəyə sadiq qalaraq bu dəfə də "Nəsillərin görüşü" adlı altında bərpaçıları bir araya gətirdi. Bu görüş təkcə yubiley tədbiri deyil, eyni zamanda işıqlı, xatirələrlə dolu keçmişin və xoş anların yada salmaq üçün mühüm bir səbəb idi.

Elmi Bərpa Mərkəzinin direktoru Əməkdar mədəniyyət işçisi Zərifə Məlikova giriş sözündə ölkəmizin ilk ali dərəcəli bərpaçı-rəssamı Fərhad Hacıyev haqqında danışdı, onun fəaliyyətinin dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini dedi.

Mədəniyyət Nazirliyi Muzey və daşınar mədəni irs sektorunun müdiri Könül Cəfərova mərkəzin işinin əhəmiyyətini qeyd etdi. Burada Fərhad Hacıyevin yaratdığı ənənələrin layiqincə davam etdirildiyini təqdirəlayiq hal kimi qiymətləndirdi, kollektivə uğurlar arzuladı.

Mərkəzin Elmi-tədqiqat şöbəsinin müdiri Ülviyyə Şirinovanın Fərhad Hacıyevin həyat və yaradıcılığına həsr olunan məruzəsi dinlənildi. Məruzədə Fərhad Hacıyevin ilk bərpa etdiyi Qərbi Avropa rəssamlıq məktəbinin nümunəsi olan "Monastr apteki" tablosu və İ.Brodskinin çəkdiyi "Hacı Zeynalabdin Tağıyevin portreti" əsəri xüsusi qeyd olundu.

1970–1980-ci illərdə mərkəzdə çalışmış, F.Hacıyevdən bərpaçılığın sirlərini öyrənmiş Əməkdar rəssam Natiq Səfərov, Ələsgər Əliyev, Ruhəngiz Əliyeva, Zemfira Əhmədova və Təranə Həsənova, hazırda mərkəzdə çalışan tikmə üzrə bərpaçı-rəssam Bəstixanım Əliyeva, Qrafika şöbəsinin müdiri Xatirə Tağıyeva, xalça üzrə bərpaçı-rəssam Xatirə Əmirova, rəngkarlıq üzrə bərpaçı-rəssam Elmira Səfərova və digər əməkdaşlar kövrək xatirələrini bölüşdülər.

Qocaman bərpaçılar, bir vaxtlar F.Hacıyevlə dostluq edənlər onun bir rəhbər və sənətkar kimi müsbət keyfiyyətlərindən söz açdılar, həyat və yaradıcılığı haqqında mühüm məlumatları diqqətə çatdırdılar.

Bildirildi ki, F.Hacıyev hələ tələbə ikən bu sahədə özünü sınayıb və ömrünün sonunadək 400-dən çox əsəri bərpa edib. O, Azərbaycan rəssamlarından M.Nəvvab, B.Kəngərli, Ə.Əzimzadə, M.Abbasov, M.Cavadov, T.Narimanbəyov, T.Salahov, M.Abdullayev, rusiyalı rəssamlar Tropin, Korovin, Borovikovski, Kandinski, Vereşşagin, Maşkov, Avropa sənətkarlarından Sarto, Dürer, Stık və başqalarının əsərlərinə yeni həyat verib. 1961-ci ildə SSRİ Rəssamlar İttifaqının üzvü seçilən bərpaçı-rəssam 1970-ci ildə UNESCO-nun nəzdindəki Beynəlxalq Muzeylər Şurasına (ICOM) da üzv olub.

1971-ci ildə rəssamın bərpa emalatxanası İçərişəhərdəki "Bəylər" məscidinə köçürülür və yeni avadanlıqlarla təmin edilir. 1981-ci ildə isə bu emalatxana rəsmi şəkildə ayrıca bir quruma – Respublika Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinə çevrilir. F.Hacıyev mərkəzin ilk rəhbəri olur və ömrünün sonunadək orada çalışır.

Vaxtilə onunla birlikdə ölkə daxilində çox məşhur panno və abidələri bərpa edən Natiq Səfərov apardıqları tədqiqatlar, günlərlə çəkilən əziyyət nəticəsində ərsəyə gələn bərpaların mədəni irsimizə böyük töhfə olduğunu qeyd etdi. Onun həm də boyakar kimi çalışdığı, hər iki işə necə böyük həvəslə yanaşdığı dilə gətirildi. "Şamaxı rəsədxanasının tikintisində", "Sakitlik", "Görüş. Neft Daşları", "Bakı ritmləri", "Metronun "Gənclik" stansiyasının inşası", "Mayaklar", "Dostluq körpüsü", "Muğam, Vaqif, caz" və başqa əsərlərinin bədii dəyəri vurğulandı.

Bildirildi ki, F.Hacıyev yaradıcılığının coşqun çağlarında, 17 dekabr 1987-ci ildə, 58 yaşında vəfat edib.

Qonaqlar F.Hacıyevin fəaliyyəti illərində çəkilmiş arxiv filmi və Elmi Bərpa Mərkəzinin tarixinin dünəni və bu gününə həsr olunmuş videoçarxı da izlədilər.

Sevindirici haldır ki, gənc kadrların işlərinə sevgi ilə yanaşması, peşəkarların səbirlə öz təcrübələrini bölüşməsi bu kollektivdə uğurlu işlərin ərsəyə gəlməsinin əsas səbəbidir. Hətta təqaüdə çıxan əməkdaşlar belə tez-tez mərkəzə baş çəkir və öz tövsiyələrini əsirgəmirlər. Məhz bu səbəbdən də görüşdə iştirak edən veteran bərpaçılar özlərini sanki iş başındakı kimi hiss edir, kollektivlə söhbətlərə fikir və təcrübələrini də bölüşərək səmimi bir ortam yaratmışdılar. Bu ortamda "Nəsillərin görüşü" eyniadlı fotosərgiyə baxış zamanı qarlı-qışlı, qızmar yaylı iş günlərinin neçə-neçə şirin xatirələri yada salındı.

Onu da qeyd etmək yerinə düşər ki, hazırda Elmi Bərpa Mərkəzi hazırda bir sıra ölkələrdəki bənzər qurumlarla və bu sahədə çalışan sənətkarlarla əlaqələr qurub, təcrübə mübadiləsi aparır. Mərkəz ICOM və ICCROM (Mədəni Sərvətlərin Mühafizəsi və Qorunması üzrə Beynəlxalq Mərkəz) kimi beynəlxalq təşkilatlarla da əməkdaşlıq edir.

**Lalə Azəri**

# "Vətənimizi, torpağımızı heç nəyə dəyişmərik..."

**"Vətən fədailəri"**



Şəhidlərin həyatı, əslində, ülvi bir ideala bağlıdır. Onlar Vətəni hər şeydən uca tuturlar. Candan şirin, əziz heç nə yoxdur, deyirlər. Amma onlar Vətənin dar günündə canını və qanını ali amal uğrunda əsirgəmirlər.

"Vətən fədailəri" rubrikasında bu dəfə şəhid çavuş Nurəddin Rəsulovdan söz açacağıq.

Nurəddin Akif oğlu Rəsulov 1991-ci il oktyabrın 31-də Füzuli şəhərində anadan olub. Doğma yurdu ermənilər tərəfindən işğal edilən zaman Nurəddinin hələ 2 yaşı tamam olmamışdı. Ailəsi Beyləqan rayonunun Mil qəsəbəsinə pənah gətirir. Nurəddin Beyləqan rayon İlham Quliyev adına tam orta məktəbində təhsil alır.

Məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanır. Hələ uşaqlıqdan düşmənə nifrət bəsləyən Nurəddin ermənilərdən qisas almağı gözləyirdi. 2010-cu ildə həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi yenidən öz xidmətini davam etdirir. Xidməti dövründə hərbi hissədə komandirlərinin hörmətini qazanır.

Nurəddinin ilk döyüş yolu 2016-cı ilin Aprel zəfərindən başlayıb. Aprel döyüşləri zamanı mənfur düşmənin Ordumuza qarşı təxribatının qarşısının alınmasında və Lələtəpə yüksəkliyinin azad olunmasında iştirak edib. Ancaq daha böyük hünər meydanı qarşıda idi...

44 günlük Vətən müharibəsi... Bu müharibədən əvvəl də hər bir azərbaycanlının qəlbində Vətən sevgisi, torpağa bağlılıq hissləri mövcud idi. Ancaq dörd il öncə sentyabrın 27-də müharibə başlanan zaman xalqımıza tamamilə fərqli ruh hakim kəsilmişdi. Gənc, yaşlı, kişi, qadın – hər kəs torpaqları üçün mübarizəyə qalxmışdı. O günlərdə qurduğumuz cümlələrin əvvəli də Vətən idi, sonu da.

Nurəddinin də gözlədiyi qisas günü gəlib çatmışdı. 44 günlük Vətən müharibəsinin ilk günündən böyük ruh yüksəkliyi ilə döyüşlərə qatılır, şücaət göstərir. "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Cəbrayılın azad olunmasına görə", "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilir.

Vətən müharibəsindən sonra Nurəddin öz istəyi ilə Türkiyədə keçirilən dağçılıq komando kurslarına yollanır. Kursu yüksək nailiyyətlərlə başa vurduqdan sonra qayıdıb komando birliyində baş kəşfiyyatçı kimi xidmətini davam etdirir. Müzəffər Ordumuzun qarşısında düşməni doğma yurdumuzdan tamamilə təmizləmək, uzun illərdir Qarabağda kök salmış erməni separatizminin kökünü birdəfəlik kəsmək missiyası vardı. O da 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağda həyata keçirilən lokal xarakterli antiterror əməliyyatında iştirak edir. Xocalı rayonu ərazisində Dağyurdu istiqamətində gedən döyüşlərdə düşmən gülləsinə tuş gələrək şəhidlik zirvəsinə yüksəlir.

N.Rəsulov Füzuli rayonunun Araz Zərgər kənd qəbiristanlığında torpağa tapşırılır.

Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilir.

Şəhidin atası Akif Rəsulov oğul itkisinə dözə bilmir. Nurəddin şəhid olduqdan sonra cəmi altı ay yaşaya bilir.

Şəhidin qardaşı Fəxrəddin Rəsulov Nurəddinin uşaqlıqdan cəsur olduğunu deyir: "Qardaşımla sonuncu dəfə ötən ilin 19 sentyabrında əlaqə saxladım. Söhbətimiz zamanı məndən halallıq istədi. Dedi ki, buradan o tərəfə yol yoxdur. Biz düşməni öz torpaqlarımızdan tamamilə təmizləməliyik. Vətənimizi, torpağımızı heç nəyə dəyişmərik, bu yolda canımızdan keçməyə hazırıq. O bu sözləri deyib mənimlə sağollaşdı. Sentyabrın 19-dan 20-nə keçən gecə saat 5-də qardaşımın şəhid xəbərini aldım. O anı təsəvvür etmək, danışmaq mümkün deyil... Nə deyə bilərəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin...".

Şəhidin anası Reyhan Rəsulova oğlu haqqında fəxrlə danışır: "Oğlum çox vətənpərvər idi. Bizə hər zaman layiqli övlad olub. Uşaqlıqdan özünə taxtadan avtomat düzəldirdi, hərbçi olmaq arzusu ilə yaşayırdı. O, arzusuna çatdı. Sevdiyi şanlı əsgər forması ilə şəhadət şərbətini içdi...".

Nurəddin Rəsulov 2014-cü ildə Ayşən xanımla ailə həyatı qurmuşdu. Nihad, Murad və Nuray adlı övladları Vətənə əmanət qalıb.

Ruhu şad olsun.

**Nurəddin Məmmədli**

# Tiflis Müəllimlər İnstitutunun tanınmış məzunu

**Həbib bəy Mahmudbəyov – 160**



XIX əsrin axırlarında çar Rusiyasında maarif və mədəniyyət yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu sahələrdə yeniliklərə Azərbaycan ziyalıları da maraq göstərirlər. Həmin dövrdə ölkəmizdə maarifçilik hərəkatının öndə gedən nümayəndələrindən biri də pedaqoq, təhsil təşkilatçısı Həbib bəy Mahmudbəyov idi. O, Bakıda yeni tipli təhsil ocaqlarının yaradılmasında fəal iştirak edib. Bu il görkəmli maarif xadiminin anadan olmasının 160 illiyidir.

Həbib bəy Hacı İbrahimxəlil oğlu Mahmudbəyov 29 iyul 1864-cü ildə Şamaxı şəhərində dünyaya göz açıb. İlk təhsilini molla məktəbində alır. Sonra Bakıda realnı məktəbdə təhsilini davam etdirir. 1883-cü ildə Sultanməcid Qənizadə ilə birlikdə sənədlərini Tiflisdə Aleksandr Müəllimlər İnstitutuna verirlər. Hər iki gənc təhsili başa vurduqdan sonra Bakıya dönür. Burada ilk özəl rus-müsəlman məktəbinin əsasını qoyurlar. İki siniflə fəaliyyət göstərən məktəb tez bir zamanda böyük şöhrət qazanır. Görkəmli maarifçi və ədəbiyyatşünas Firidun bəy Köçərli bu məktəb haqqında yazıb: "Bu vaxtlarda (1891) Qafqazda maarif müdiri olan Yanovski Sultanməcid Qənizadə ilə Həbib bəy Mahmudbəyovun təzə qayda ilə açdıqları məktəbləri ziyarət edir. Şagirdlərin oxumasından, həm də cavan müəllimlərin səy və hümmətindən artıq dərəcədə razı qalır. O, sonralar bu məktəbi hər yerdə vəsf edib".

Milli Azərbaycan Tarixi Muzeyinin elmi işçisi Nərmin Bağırova araşdırmasında qeyd edir ki, məktəbdə təlimin yüksək keyfiyyəti, nümunəvi nizam-intizam və səliqəlilik tezliklə əhalinin diqqətini çəkir. 1891-ci ildə 150 nəfər sakin Bakı Şəhər Dumasına ərizə ilə müraciət edərək belə məktəblərin sayının artırılması və dövlət xərcinə keçirilməsini xahiş edirlər. Həmin il iki məktəb açılır. Birinci məktəbə 35, ikinci məktəbə isə 45 şagird qəbul olunur. H.Mahmudbəyov birinci, S.Qənizadə isə ikinci məktəbə müdir təyin olunur. Sonralar rus-Azərbaycan məktəblərində S.S.Axundov, A.Şaiq, Ə.Cəfərov, A.Atakişiyev, H.Behbudova və başqa müəllimlər dərs deyirlər.

Qeyd edək ki, 1897-ci ildə S.Qənizadə, H.Mahmudbəyov və Ə.Axundovun rəhbərliyi altında Bakıda nəşriyyat şirkəti də yaradılır. Burada əsasən rus və Azərbaycan dillərində bədii ədəbiyyat, dərsliklər və s. nəşr olunur.

Görkəmli maarif xadimi həm də geniş ictimai maarifləndirmə fəaliyyəti ilə də məşğul olur. Şəhər Dumasında məktəb komissiyasının üzvü kimi Azərbaycan müəllimlərinin birinci qurultayının (1906) keçirilməsində mühüm xidmətləri olur.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan (1920) sonra H.Mahmudbəyov xalq təhsilinin inkişafında yeni istiqamətlərin işlənib hazırlanmasının fəal iştirakçılarından biri kimi fəaliyyət göstərir. Hökumətin tapşırığı ilə qabaqcıl maarif xadimləri F.Rzabəyli və Ə.Cəfərovla birlikdə Azərbaycan Ali Pedaqoji İnstitutunun yaradılmasında yaxından iştirak edir. Həmin institutda uzun illər direktor müavini olur, eyni zamanda rus dili və ədəbiyyatı müəllimi işləyir.

Folklorşünas Əbülqasım Hüseynzadə xatirələrində H.Mahmudbəyovun maarif işi ilə yanaşı, teatr sənətinə də həssas yanaşdığını yazır: "Həbib bəy Mahmudbəyovu 15 yaşımdan tanıyırdım. Mən o vaxt rus-tatar məktəbində oxuyurdum. Məktəbin direktoru Həbib bəy Mahmudbəyov idi. Bir gün Həbib bəyin təşəbbüsü ilə məktəbdə yaradılmış teatr truppasına üzv yazıldıq. Mən ədəbiyyata və teatra çox həvəs göstərirdim. Bunu Həbib bəy Mahmudbəyov hiss etmişdi. Ona görə də mənə müxtəlif rollar verirdi".

Mənbələrdə bildirilir ki, H.Mahmudbəyov qayğıkeş və xeyirxah bir insan kimi çətin məqamlarda bir çoxlarına yardım göstərib. Məlumdur ki, Hüseyn Ərəblinskinin uşaqlıq illəri ehtiyac və sıxıntı içində keçib. O, kiçik yaşlarından atasını itirir, təhsil xərcini ödəyə bilmədiyi üçün məktəbi buraxmalı olur. Lakin H.Mahmudbəyov onu da rus-tatar məktəbinə qəbul edir...

Milli ziyalı nəslinin yetişməsində böyük əməyi olan maarif və mədəniyyət xadimi Həbib bəy Mahmudbəyov 1928-ci ildə vəfat edib. Təəssüf ki, görkəmli maarif fədaisinin harada dəfn olunduğu məlum deyil.

**Savalan Fərəcov**

# Teatrlar içində bir dənə "yaşıl gözəl"...

"Teatr binaları" silsiləsindən



Köhnə əyyamlarda teatr tamaşasını, bizim bugünkü düşüncəmizlə konsert proqramlarını daha çox insan eşidib görsün deyə, ilk teatr-konsert səhnələri elə açıq havada qurulub. Tarixi bizim eradan öncə başlayan neçə-neçə qədim açıq hava teatrını misal çəkə bilərik. Azərbaycanda Aspendos (Türkiyə), Dionis (Yunanıstan), Taormina (İtaliya), Merid (İspaniya) kimi qədim şəhər teatrları olmasa da, ölkəmiz son yüzilliklərdə dəbə minən yaşıllıqlar içində açıq hava teatrından xali deyil.

Söhbət Bakı buxtasının təbii amfiteatrını bir qədər də gözəlləşdirən Yaşıl teatrdan gedir. Düzdür, Yaşıl teatradək də yaxın-uzaq ölkələrdə belə teatr-konsert müəssisələri qurulmuşdu… Rusiyanın Moskva, Soçi, Latviyanın Yurmala şəhərlərindəki yaşıl teatrlar, Polşanın Sopot şəhərindəki "Meşə operası" adlı açıq hava konsert salonu kimi teatrlar da yaşca bizim Yaşıl teatrdan böyükdür. Lakin formaca, ideyaca oxşarlıq mühüm deyil, əsas olan məzmundur.

Bakının gözəli Yaşıl teatr ötən əsrin altmışıncı illərinin məhsuludur. 1959-cu ildə şəhərin Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, indiki dillə desək, meri seçilən Əliş Ləmbəranski paytaxtın simasını yeniləyən maraqlı ideyaları, həmin ideyaları israr və ardıcıllıqla həyata keçirən dövlət xadimi idi. Dağüstü parkın aşağı hissəsində Bakı buxtasına ən gözəl mənzərənin açıldığı yerdə Yaşıl teatr adlı açıq hava konsert salonunun inşası da onun, Bakını qəlbən sevən dövlət xadiminin ideyası idi. Beləliklə, Yaşıl teatrın və onun böyründəcə funikulyorun tikintisini çox gözləmək lazım gəlmədi. 1962-ci ildə hər iki obyekt istifadəyə verildi.

Düzdür, o vaxtadək də Bakıda konsertlərin verildiyi yay kinoteatrlarını çıxmaqla üç açıq səhnə var idi: filarmoniyanın yay salonu, Sahil bulvarındakı səhnə, bir də hələ 1930-cu illərdə Kirov (indiki Dağüstü park) parkının təməli qoyulanda tikilmiş yığcam səhnə. Yaşıl teatrın ən vacib üstünlüyü o idi ki, burada səhnənin arxa divarı yox idi və dənizlə qovuşan şəhər mənzərəsi arxa dekorasiyanı əvəz edirdi. Landşaft pozulmadan tamaşaçı salonunun nal şəklində həlli isə həm yaxşı səslənməni, həm də yaxşı görüntünü, həm də güclü küləyin təsirindən qorunmağı təmin edir.

Üstəlik, teatr tikilərkən ətrafdakı parka zərər dəyməmiş, onu əhatə edən ağaclar kəsilməmişdi. Beləcə, unikal landşaft memarlığı nümunəsi yaranmışdı. Səhnə rampası bir tərəfdən metal dayaqlara, digər tərəfdən də daş sütunlara bərkidilmiş şəbəkə naxışlı yüngül metal formalarla əhatələnmişdi. Yaşıl teatr həm də nadir və bahalı materiallardan istifadə etmədən yüksək peşəkarlığa nail olmağın mümkünlüyünə sübut kimi memarlıq tarixinə düşdü. Bakı Dövlət Layihə İnstitutunda çalışan bir qrup memar, konstruktor, landşaft dizayneri və digər mütəxəssislərin fantaziyası və biliyi, Bakı Baş Tikinti Trestinin 3 nömrəli idarəsinin mühəndis və inşaatçılarının əməyi sayəsində Azərbaycan paytaxtı unikal memarlıq nümunəsi qazandı.

Uzun illər boyu Yaşıl teatrı əhatə edən ağaclar bu səhnədə baş tutan yüzlərlə konsert proqramını öz budaqlarını əsdirməklə alqışladı. Lakin bütün tamaşa-konsert müəssisələri kimi, Yaşıl teatr da köhnəlir, onun da təmirə, hətta sanballı rekonstruksiyaya ehtiyacı yaranırdı. Üstəlik, ölkənin siyasi həyatında baş verənlər, bütün Azərbaycan ərazisindəki mövcud siyasi-psixoloji durum 1993-cü ildə Yaşıl teatrın öz fəaliyyətini dayandırmasına gətirib çıxartdı.



2005-ci ildə Yaşıl teatrın təmir və bərpa edilməsi barədə qərar qəbul edildi. Bu iş Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının, Rusiya Beynəlxalq Memarlıq və İnşaat Akademiyasının üzvü, memarlıq doktoru, professor, Azərbaycan Dövlət mükafatı laureatı və Prezidentin fərdi təqaüdçüsü Ramiz Əbdülrəhmanova həvalə edildi.

Biz də Yaşıl teatra ikinci həyat bəxş edən qocaman memarla onun layihəsi barədə söhbət edirik.

*– Ramiz müəllim, Yaşıl teatrın bərpası bu tip müəssisələrin bərpa layihələri arasında ən uğurlu nümunələrdən sayılır. Mütəxəssislər sizin layihəni həm də teatrın ilkin simasını qoruduğuna görə bəyənirlər.*

– Əslində, salonun və səhnənin formasını kəskin dəyişdirilməsinə ehtiyac yox idi. Sadəcə, Yaşıl teatrı daha mükəmməl və rahat tamaşa-konsert müəssisəsinə keçirmək əsas məqsədimiz idi. Bəzi ağacları budayıb yığcamlaşdırdıq ki, tamaşaçı həm səhnəni, həm də parkdan Xəzərədək gözəl təbiət mənzərəsini seyr edə bilsin. Hazırda Yaşıl teatrın səhnəsində hər janrda tamaşalar oynamaq, konsertlər qurmaq imkanı var. Səhnədə düzəldilmiş lük döşəmənin altında yerləşdirilmiş xüsusi otaq-anbardan dekorasiyaları bir neçə dəqiqə ərzində səhnəyə qaldırıb endirmək imkanı yaradır. Dekorasiyanı tez yığıb tez də quraşdırmaq mümkündür ki, bu prosesi də səhnənin arxasında gizlədilmiş məkandan idarə etmək olur. Səs, işıq və səhnənin transformasiya işləri də oradan idarə edilir. Səhnənin altında üç mərtəbə tikilib. Dekorasiyaları saxlamaq üçün anbar, qrim və istirahət otaqları, sanitariya qovşağı yerləşdirilib.

*– Səhnə ilə yanaşı, yardımçı otaqlar da ifaçılar üçün rahat olmalıdır ki, sənətçi öz çıxışına hazırlaşanda fikri dağılmasın…*

– Elədir. Yeniliklərdən biri də budur ki, səhnənin altında məşq üçün böyük salon var. Orada çox yaxşı səs izolyasiyası qurulduğu üçün hətta xor kollektivi belə məşq edə bilər. Bu zaman yuxarıda, salonda tamaşaçılar onların səsini eşitmir, səhnədə çıxış edən ifaçının da səsinə başqa səs qarışmır. Böyük kollektiv, yəni rəqs ansamblı üçün ayrıca geyinib-soyunma otağı, tək ifaçılar üçün fərdi qrim otaqları da var. İfaçı rahat çıxışa hazırlaşa, antraktda dincələ bilər.



*– Yaşıl teatr kifayət qədər tamaşaçı tutur. Onların da tam komfort şəraitdə səhnədə göstərilənlərdən zövq almağa haqqı çatır.*

– Tamaşaçı yerinin sayı 2 mindən 3 minə çatdırıldı. Həm də teatrın rekonstruksiyasında əsas məqsəd tamaşaçılara rahat seyr etmək imkanı yaratmaq idi. Təsəvvür edin, əvvəllər Yaşıl teatrın tamaşa salonunun ərazisində nə bufet, nə də sanitar qovşaq nəzərə tutulmuşdu. Mən layihəmdə bu boşluğu da aradan qaldırdım. O cümlədən qəlyanaltı üçün rahat məkan – bufet yaradıldı.

Əvvəllər bu teatrda ali qonaqlar üçün, belə deyək ki, hökumət lojası yox idi. Yeni layihədə bu da nəzərə alındı, salonun ortasında xüsusi loja quraşdırıldı. Həmin lojaya oturacaqların arasından da keçib çatmaq olar. Yuxarıda avtomobildən düşüb yeraltı koridorla da düz həmin lojaya qalxmaq üçün şərait yaradılıb.

Bilet kassasını teatrdan kənara çıxartdıq ki, bilet növbəsi salona daxil olanlara mane olmasın. Üstəlik, tamaşa salonunun üstündə bilet almağa pulu çatmayanların (əsasən tələbələr üçün) ayaq üstə səhnəni seyr etməsindən ötrü terras da qurduq.

*– Ramiz müəllim, Yaşıl teatr rekonstruksiyadan sonra 2007-ci ilin mayında açıldı. O vaxtdan 14 il keçib. Sizin layihənizdəki bütün yeniliklər indi də işləkdir? Hansısa dəyişiklik edilməyib?*

– Mənim layihəmdə belə bir özəllik nəzərdə tutulmuşdu. Salondan baxanda səhnənin hər iki tərəfində pilləli (terrasla) şəlalə quraşdırmışdım. Su, səhnənin bir tərəfində təxminən otaq hündürluyündən şəlalə kimi axaraq hovuza dolurdu, səhnənin qarşısı ilə axaraq o biri tərəfədək qalxırdı. Konsert vaxtı şəlalə işıqlandırılırdı. Mən bilən, baxımsızlıq üzündən həmin şəlalə daha işləmir.

***

Təəssüf ki, Yaşıl teatrın səhnə fəaliyyəti ilin fəsillərinə bağlıdır. Açıq havada vaxt keçirmək imkanı verən xoş havalı günlərdə Yaşıl teatrdakı konsertlər, tədbirlər ətrafı daha da işıqlandırır, bayram ovqatı ətrafı öz xoş aurasına bürüyür. Dağüstü parkda gəzintiyə çıxanlar da qaranlıq səmanı yaran musiqi sədaları altında mənalı istirahətə şərik olurlar. Yəqin ki, onlar belə məqamda "gərək bir dəfə də burada konsertə gələk" deyə düşünürlər. Elə şəhərin, teatrın, bulvarın sayrışan işıqlarının fonunda suları mirvari kimi parlayan Xəzər də bu məkandan yayılan musiqiyə qulaq kəsilir.

**Gülcahan Mirməmməd**

# Filarmoniya səhnəsində “Sələflər və xələflər”



Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin oktyabrın 11-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçirilən konserti “Sələflər və xələflər” adlanıb.

Proqramda Qara Qarayevin “Don Kixot” simfonik qravürləri, Firəngiz Əlizadənin “Nizami fəzası”, Dmitri Şostakoviçin violin və orkestr üçün 1 saylı konsert (a moll, op.77) əsərləri səslənib.

Konsertdən əvvəl sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızı çıxış edərək proqram barədə dinləyiciləri məlumatlandırıb.

Bədii rəhbər və baş dirijor Əməkdar artist Fuad İbrahimovun idarə etdiyi konsertin solisti Sergey Doqadin (violin, Avstriya) olub.

XX əsrin və dövrümüzün üç görkəmli bəstəkarının əsərlərindən ibarət konsert alqışlarla qarşılanıb. Tamaşaçılar arasında olan Xalq artisti, professor Firəngiz Əlizadəyə gül dəstələri təqdim olunub.

# Qara Qarayev adına Dövlət Kamera Orkestrinin növbəti konserti

Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri oktyabrın 12-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində növbəti konsert proqramı ilə çıxış edib.

Bədii rəhbər və baş dirijor, Xalq artisti Fəxrəddin Kərimovun idarə etdiyi konsertdə klassik və müasir əsərlər səsləndirilib.

Proqrama avstriyalı bəstəkar və orqan ifaçısı Anton Bruknerin “İntermezzo”, “Rondo”, macar bəstəkarı Julius von Beliczayın simli alətlər üçün serenada (op.36; ilk ifa), Jül Massnenin “Meditasiya”, Norveç bəstəkarı və dirijoru Yuhan Svensenin Norveç xalq melodiyasına variasiyalar (op.27) və Azərbaycan bəstəkarı Xədicə Zeynalovanın “Payız rəngləri” əsərləri daxil edilib. Solist qismində Əməkdar artist Aleksey Miltıx (violonçel) çıxış edib.



# Maestronun sənət düşüncələri

“İndinin özündə də öyrənirəm və buna can atıram. Çünki hər bir əsər üzərində işləmək dirijordan böyük zəhmət və bilik tələb edir”

Musiqi insanlarda gözəl duyğular, lirik və coşqun hisslər, xoş ovqat və bədii zövq aşılayan incəsənət növü olmaqla bərabər, həm də müxtəlif istiqamətləri özündə əks etdirir. Hələ ki, digər musiqi istiqamətlərinin adını çəkməyək. Çünki məqsədimiz musiqinin klassik janrlarını özündə ehtiva edən və yüksək professionallıq tələb edən dirijor sənətindən və onun mahir təfsirçisindən bəhs etməkdir.

Dirijor sənəti haqqında danışarkən öncə maestro Niyazinin xidmətləri yada düşür. O Niyazi ki, dahi Üzeyir Hacıbəylinin tövsiyələrindən bəhrələnərək böyük istedadı ilə musiqi tariximizdə silinməz izlər qoyub.

Haqqında söhbət açacağımız görkəmli sənətkarımız Xalq artisti, professor Fəxrəddin Kərimov da Niyazi irsinə sadiq qalaraq Azərbaycan dirijorları içərisində öz üslubunu yaradıb. Onun peşəkar dirijor kimi formalaşmasının təməli, fitri istedadı ilə yanaşı, aldığı mükəmməl musiqi təhsili ilə bağlıdır. Mükəmməl musiqi təhsili isə oxuduğu Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin skripka sinfindən başlayır.

Oxucularımıza Fəxrəddin Kərimovun həyat və yaradıcılığı barədə qısa məlumat vermək məqamında onunla söhbətimizdən bəzi fikirlərini qələmə alırıq: “Mən xoşbəxtəm ki, Bakıda Bülbül adına məktəbi bitirmişəm. Sonra P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasına daxil olaraq 1978-ci ildə oranı da uğurla başa vurmuşam. Bakıya döndükdən sonra bir müddət Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrində konsertmeyster kimi fəaliyyət göstərmişəm. Ən böyük uğurum da o oldu ki, Sankt-Peterburqda opera və simfonik orkestr dirijoru ixtisasına yiyələnmişəm. Bütün bunlar həyatımın ən gözəl şanslarıdır. Çünki bu minvalla dirijorluq sənətinin sirlərinə nail olmuşam...”.

Maestronun sözlərinin davamı olaraq biz də bir sıra məqamları diqqətə çatdıraq.

Fəxrəddin Kərimov 1982–1988-ci illərdə N.A.Rimski-Korsakov adına Sankt-Peterburq Konservatoriyasında opera və simfonik orkestr dirijoru ixtisası üzrə V.A.Gergiyev və professor İ.A.Musinin sinfində təhsil alıb. Sonra Bakıya qayıdaraq Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında dirijor olaraq çalışır. Yaradıcılığını zənginləşdirmək və sənətini də kamilləşdirmək amalı ilə o, yenidən Sankt-Peterburqa gedərək 1989–1991-ci illərdə S.M.Kirov adına Opera və Balet Teatrında (indiki Sankt-Peterburq Mariinski Teatrı) dirijorluq təcrübəsi keçir. Bu dövrdə teatrda baş dirijorun assistenti kimi çalışıb, müstəqil dirijor kimi isə C.Verdinin “Trubadur” operasının musiqi rəhbəri olub. Bu illər yaradıcılıq dövrü olaraq ona yeni uğurlar gətirir. Bu uğurlu yaradıcılıq yolunun Türkiyə səhifələri də var.



1991–2004-cü illər Fəxrəddin Kərimov Türkiyədə fəaliyyət göstərir. Memar Sinan Universitetindəki (İstanbul) konservatoriyada simfonik orkestrin dirijoru kimi çoxlu sayda konsertlər verməklə yanaşı, müxtəlif beynəlxalq festivallarda da iştirak edib. Onun rəhbərliyi ilə ilk dəfə olaraq solistlər, xor və tələbə orkestrinin gücü ilə Adnan Sayqunun “Yunus Əmrə” oratoriyası səslənib, İstanbul Opera və Balet Teatrında bir sıra operalar tamaşaya qoyulub. 1995-ci ildə İstanbul Bələdiyyəsinin dəvəti ilə Camal Rəşid Rey konsert salonunda simfonik orkestr yaradıb və ona rəhbərlik edib.

Fəxrəddin müəllimin Türkiyədəki fəaliyyəti həm onun, həm də qardaş ölkənin musiqi həyatının parlaq səhifələridir. Bu dövrdə o, Rusiya, Belarus, Gürcüstan, İsveçrə, Niderland və başqa ölkələrdə konsertlər verib, dəfələrlə Türkiyənin aparıcı simfonik və kamera orkestrlərini idarə edib.

2004-cü ildə Bakıya qayıdaraq yenidən Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrində dirijorluq fəaliyyətini davam etdirir. Bu orkestrlə çoxlu sayda konsertlər verərək ifa olunan əsərləri öz təfsirində təqdim edir.

Bu yerdə maestronun söhbətinə qayıdaq. Çünki onun söylədiyi fikirlər əsl sənət dərsidir: “Zəngin repertuar təbii ki, təcrübə ilə əldə olunur, təcrübənin isə əsasını təhsil təşkil edir. Bunlar bir-biri ilə vəhdətdədir. Təcrübə və təhsil, amma öndə duran təhsildir. Çünki nə qədər istedad, istək, maraq və bu kimi amillər olsa da, onları inkişaf etdirmək üçün mütləq təhsil almaq lazımdır. Mənim arzum idi ki, bu sahədə mükəmməl təhsil alım və buna da nail oldum. İndinin özündə də öyrənirəm və buna can atıram. Çünki hər bir əsər üzərində işləmək dirijordan böyük zəhmət və bilik tələb edir. Yalnız musiqini deyil, fəlsəfəni də, etika-estetikanı da, tarixi, ədəbiyyatı da bilməlisən ki, təqdim olunan əsərlərin musiqi dili ilə bahəm onların bədii təsirini də tamaşaçıya orkestrdə düzgün çatdırasan. Bütün bunlar da mükəmməl təhsillə bağlıdır.

Məsələn, Bakıda opera və simfonik orkestr dirijoru yetişmir. Burada yalnız xor dirijorluğu və xalq çalğı alətləri orkestri üçün dirijorlar yetişir. Amma opera və simfonik orkestr dirijoru artıq başqa istiqamətdir. Və yaxud Qərb musiqi alətlərinin ifaçılığı da eynən buna bənzəyir. Məsələn, bizdə tar, kamança, xanəndə sənəti daha mükəmməl öyrənilir, çünki onların kökü burdadır. Həmçinin bizim yaxşı skripkaçılar, pianoçular, nəfəs alətləri və s. musiqi alətlərində ifaçılarımız var, amma etiraf etməliyik ki, bunlar bizə gəlmə alətlərdir. Nə qədər bizdə mükəmməl təhsil olsa da, hər halda, onların, yəni o alətlərin hər birinin öz vətəni var. Amma bizim ən böyük uğurumuz odur ki, bu alətləri düzgün mənimsəyə və ifa edə bilirik. Bunu deməkdə məqsədim budur ki, daha yüksək peşəkarlıq əldə etmək üçün təcrübəli müəllimlərdən dərs almaq və gecə-gündüz öz üzərində işləmək lazımdır. Bizim sahəyə gəlincə isə, opera və simfonik dirijoru mütləq bu sahənin biliciləri tərəfindən yetişməlidir. Klassik əsərlərin interpretasiyası üçün bu çox vacib məsələdir”.

Fəxrəddin müəllim fikirlərini söylədikcə mənim nəzərimdə onun fəaliyyəti canlanır. Simfonik və kamera orkestrlərində onun dirijorluğu ilə rəngarəng konsert proqramlarını izləmişəm. Hətta elə dünya klassikləri var ki, onların əsərləri Bakıda ilk dəfə Fəxrəddin Kərimovun təşəbbüsü ilə səslənib. O, biz musiqişünasları da həmin əsərlər haqqında çıxış etməyə sövq edib. Konsert öncəsi bu əsərlər haqqında tamaşaçılara məlumat vermişik. Bu cəhət onun insanların maariflənməsi istiqamətindəki mühüm fəaliyyətinin göstəricisidir.

Maestro 2009-cu ildən Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən “Muğam aləmi” beynəlxalq festivallarının açılış və bağlanış konsertlərində simfonik və ya kamera orkestrlərinə dirijorluq edib. 2009-cu ildə festivalın bədii rəhbəri Xalq artisti, professor Firəngiz Əlizadənin ideyası əsasında tərtib olunan konsertlərdə simfonik və xalq çalğı alətləri orkestrlərinin bir səhnəni bölüşərək muğam və dünya klassiklərinin əsərlərinin uğurla ifasında da Fəxrəddin Kərimovun mühüm xidmətləri vardı. Bu uğurların da mənbəyi, onun qeyd etdiyi kimi, istedad, savad və zəhmətdir.

Bu yerdə yenə sənətkarın tövsiyələrini də qələmə alırıq: “Bizim sahə çox çətin və məsuliyyətlidir. Məsələn, türklər dirijora yönətmən deyirlər. Deməli, dirijor orkestrin ifaçıları üçün də, qulaq asanlar üçün də düzgün interpretator olmalıdır. Burada hisslər deyil, düşüncə əsas amildir. Bu da peşəkarlıqla bağlıdır. Təbii ki, hər kəs də öz qabiliyyətinə görə düşüncə sahibidir. Mən çox şadam ki, bizim yüksək düşüncəyə malik peşəkarlarımız var. Onlar musiqinin müxtəlif sahələrində çalışırlar. Məsələn, Üzeyir Hacıbəylidən başlayan musiqi xadimlərimiz Qara Qarayev, Fikrət Əmirov, Arif Məlikov və digərləri, eləcə də bu gün dünyaşöhrətli bəstəkarımız Firəngiz Əlizadə, onun beynəlxalq müsabiqələrdə münsiflər heyətinə rəhbərlik etməsi – bütün bunlar musiqi tariximizin böyük uğurudur. Bu uğurlu yol layiqincə davam etdirilir. Amma, yenə də azdır. Mən arzu edirəm ki, bizdə peşəkarların sayı daha çox olsun. Yalnız Bakıda deyil, respublikamızın digər şəhərlərində simfonik və kamera orkestrləri olsun, opera və balet teatrları açılsın. Peşəkar kadrların sayı artsın. İncəsənəti necə gəldi təbliğ etmək olmaz. Əsl peşəkar, istər dirijor, istər ifaçı və s. olsun – musiqini öz daxilindən keçirib onu dinləyiciyə ötürməlidir. Bizim belə musiqiçilər yetişdirmək üçün hər cür potensial imkanlarımız var. Sadəcə, bu imkanlardan doğru, düzgün istifadə etməli və ustadların ənənələrinə düzgün riayət etməliyik...”.

Əziz oxucular, zənnimcə, musiqini peşəkarlıqla təqdim edən maestro fikirlərini də gözəl söylədi. Biz də onun maraqlı düşüncələrini sizinlə bölüşdük. Həmişə orkestrin önündə dayanaraq ifaçılarla tamaşaçılar arasında bir bağlılıq yaradan, onları musiqinin cazibəsinə yönəldən Fəxrəddin Kərimovla oxucular arasında biz də bir mənəvi körpü salmağa çalışdıq. Bu mənəvi körpünün dayağı da elə Xalq artisti, professor Fəxrəddin Kərimovun böyük istedadı və fədakar əməyi sayəsində formalaşan zəngin yaradıcılığıdır. Yaşadığı illər ərzində bu yaradıcılıq ona çox uğurlar gətirib. 70 illik yubileyində də ona yeni uğurlar və cansağlığı arzulayırıq.

**Səadət Təhmirazqızı**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

## Xatirə təqvimi — 16 – 20 oktyabr

### Azərbaycan

**16 oktyabr 1923** – Xalq yazıçısı, şair, ədəbiyyatşünas Gülhüseyn Hüseynoğlu (Gülhüseyn Hüseyn oğlu Abdullayev; 1923 – 8.7.2013) Masallı rayonunun Mollaoba kəndində doğulub. Azərbaycan ədəbiyyatında mənsur şeirin dəyərli nümunələrini yaradıb. BDU-nun professoru olub.

**16 oktyabr 1923** – Əməkdar incəsənət xadimi, bəstəkar Asya Baxış qızı Sultanova (1923 – 22.11.2021) Bakıda anadan olub. 1950-ci illərdən Moskvada yaşayıb, mahnılarını dövrün məşhur müğənniləri oxuyublar.

**16 oktyabr 1926** – Bəstəkar, pedaqoq, Xalq artisti, professor Ramiz Hacı oğlu Mustafayev (1926 – 10.4.2008) anadan olub. “Vaqif”, “Polad”, “Xan və əkinçi” operalarının, operettaların, simfoniyaların və s. müəllifidir. 1940-cı illərdə Akademik Dram Teatrında aktyor kimi fəaliyyət göstərib.

**16 oktyabr 1935** – Yazıçı və kinodramaturq Əli Hüseyn oğlu Qafarov (1935–1979) anadan olub. “Azərbaycanfilm”də çəkilmiş bir neçə bədii (“Qızıl qaz”, “Çarvadarların izi ilə”) və sənədli filmlərin ssenari müəllifidir.

**16 oktyabr 1946** – Kinooperator Köçəri Məmmədov (1946–2008) Gədəbəy rayonunda doğulub. Azərbaycanın yeni tarixini əks etdirən sənədli və xronikal filmlərin operatoru olub.

**17 oktyabr 1915** – Operator, rejissor, Xalq artisti Cavanşir Musa oğlu Məmmədov (1915-1997) Şuşada doğulub. Müharibə illərində (1941-45) Mərkəzi sənədli filmlər studiyasında fəaliyyət göstərib. Bakı kinostudiyasında sənədli filmlər çəkib.

**17 oktyabr 1924** – Şair Hüseyn Razi (Hüseyn Məmməd oğlu Rzayev; 1924 – 17.2.1998) Ordubad rayonunun Dəstə kəndində anadan olub.

**17 oktyabr 1936** – Yazıçı Çingiz Əbülhəsən oğlu Ələkbərzadə (1936 – 7.1.1999) anadan olub. “Güllələr dənizdə sönür”, “Qızıl yəhərli at” və s. kitabların, “Vulkana doğru” filminin ssenari müəllifidir.

**17 oktyabr 1949** – Tanınmış dilçi alim, türkoloq, filologiya elmləri doktoru Məhəbbət Mirzəxan qızı Mirzəliyeva (1949 – 22.7.2016) Bakıda anadan olub.

**17 oktyabr 2003** – Şair Nüsrət Yusif oğlu Kəsəmənli (29.12.1946 – 2003) vəfat edib. Bir çox şeirlərinə musiqi bəstələnib, sənədli filmlərin ssenari müəllifidir. “Azərbaycanfilm”də baş redaktor işləyib, “Doğma sahillər” filmində çəkilib.

**17 oktyabr 2017** – Prezident İlham Əliyev böyük bəstəkar, pedaqoq, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Qara Qarayevin 100 illik yubileyi haqqında sərəncam imzalayıb.

**18 oktyabr 1926** – Teatr rejissoru, pedaqoq Nəsir Müseyib oğlu Sadıqzadə (1926–1996) Şuşada anadan olub. Akademik Dram, Gəncə, Sumqayıt və b. teatrlarda çalışıb, Mədəniyyət və İncəsənət Universitetində dərs deyib. Filmlərdə (“Qətl günü”, “Bəxt üzüyü”) çəkilib.

**18 oktyabr 1949** – Əməkdar incəsənət xadimi, tanınmış rejissor, aktyor Vaqif İbrahimoğlu (Həsənov; 1949 – 12.5.2011) Bakının Mərdəkan qəsəbəsində doğulub. Musiqili Komediya, Milli Dram teatrlarında tamaşalar hazırlayıb. 1989-cu ildə “Yuğ” teatrını yaradıb. Filmlərdə çəkilib: “Qəm pəncərəsi”, “Otel otağı” və s.

**19 oktyabr 1898** – Əməkdar elm xadimi, ədəbiyyatşünas alim, akademik Feyzulla Qasımzadə (1898 – 29.3.1976) Bakıda anadan olub.

**19 oktyabr 1932** – Əməkdar incəsənət xadimi, rəssam Sara Məmmədağa qızı Manafova (1932 –13.8.2007) Bakıda anadan olub. Füzulinin “Leyli və Məcnun” poemasına triptix, “Xocalı faciəsi. Haray” və s. tabloların müəllifidir. Əsərləri Moskvada Şərq Xalqları İncəsənəti Muzeyində saxlanılır.

**19 oktyabr 1962** – Əməkdar rəssam, heykəltaraş Seyfəddin Əli oğlu Qurbanov (1962 – 16.11.2021) Naxçıvan MR Şərur rayonunun Siyaqut kəndində doğulub. Ukraynada yaşayıb, bu ölkənin Xalq rəssamı adına layiq görülüb. İ.Nəsiminin Kiyevdəki heykəlinin (2019) müəllifidir.

**19 oktyabr 1972** – Opera müğənnisi, Xalq artisti Fatma Səttar qızı Muxtarova (26.3.1893 – 1972) vəfat edib.

**19 oktyabr 1995** – Prezident Heydər Əliyev görkəmli müğənni, SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı Rəşid Behbudovun 80 illiyi haqqında sərəncam imzalayıb.

**19 oktyabr 2005** – Prezident İlham Əliyev görkəmli xalçaçı-rəssam Kamil Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında sərəncam imzalayıb.

**20 oktyabr 1905** – Yazıçı Leo (Lev) Abramoviç Nusenbaum (Nussimbaum; 1905 – 27.8.1942) Bakıda anadan olub (bəzi mənbələrə görə, Kiyevdə doğulub, körpə ikən ailəsi Bakıya köçüb). 1920-ci ilədək Azərbaycanda yaşayıb, sovetləşmədən sonra Avropaya mühacirət edib. Məhəmməd Əsəd bəy, Qurban Səid təxəllüsləri ilə əsərlər yazıb. “Əli və Nino” romanı ilə şöhrət qazanıb.

**20 oktyabr 1906** – Əməkdar artist İbrahim Ağahüseyn oğlu Hüseynov (Şünasi; 1906–1961) Bakıda doğulub. Musiqili Komediya, Akademik Dram teatrlarında çalışıb.

**20 oktyabr 1910** – İlk azərbaycanlı qadın teatr rəssamlarından biri İzzət Əli qızı Seyidova (1910 – 30.11.1973) anadan olub. Leninqrad Boyakarlıq, Heykəltaraşlıq və Memarlıq İnstitutunda oxuyub, 1938-ci ildən Opera və Balet Teatrında fəaliyyət göstərib.

**20 oktyabr 1913** – Tanınmış şair, respublika Dövlət mükafatı laureatı Əhməd Cəmil (Əhməd Səttar oğlu Cəmilzadə; 1913 – 27.9.1977) İrəvanda doğulub. Ədəbi nəşrlərə rəhbərlik edib. Sovet şairlərinin şeirlərini rus dilindən Azərbaycan dilinə tərcümə edib.

**20 oktyabr 1917** – Xalq artisti, opera müğənnisi İdris Fərhad oğlu Ağalarov (1917 – 4.5.1975) Tiflisdə doğulub. 1937-ci ildən Akademik Opera və Balet Teatrının solisti olub.

**20 oktyabr 1922** – Xalq artisti, müğənni Şövkət Feyzulla qızı Ələkbərova (1922 – 7.2.1993) anadan olub. Məlahətli səsi ilə Azərbaycan musiqisini bir çox ölkələrdə tanıdıb. Bülbül adına Orta ixtisas musiqi məktəbində dərs deyib.

**20 oktyabr 1931** – Əməkdar incəsənət xadimi, tanınmış heykəltaraş, Dövlət mükafatı laureatı Telman Heydər oğlu Zeynalov (1931 – 12.1.2024) Bakıda anadan olub.

**20 oktyabr 1995** – Əməkdar artist Mustafa Hüseyn oğlu Sərkarov (1905-1995) vəfat edib. Gəncə Dram Teatrında aktyor, truppa müdiri işləyib.

### Dünya

**16 oktyabr 1888** – Amerika dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1936) Yudjin O’Nil (Eugene Gladstone O’Neill; 1888–1953) anadan olub. Pyesləri: “Üfüqün arxasında”, “Buz paylayan gələcək”, “Qarağaclar altında məhəbbət”.

**16 oktyabr 1927** – Alman yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1999) Günter Qrass (Günter Wilhelm Grass; 1927 – 13.4.2015) anadan olub. Əsərləri: “Tənəkə təbili”, “Pişik və siçan”, “İt illəri”, “İblisin gündəliyindən”.

**17 oktyabr 1849** – Polyak bəstəkarı və pianoçusu, romantizmin parlaq nümayəndəsi Frederik Şopen (Fryderyk Chopin; 22.2.1810 – 1849) vəfat edib. Vals, noktürn, ballada, sonata və digər janrlarda əsərlərin müəllifidir.

**17 oktyabr 1915** – Amerika dramaturqu Artur Miller (Arthur Aster Miller; 1915–2005) anadan olub. Əsərləri: “Mənim bütün oğullarım”, “Kommivoyacerin ölümü”, “Sərt sınaq” və s.

**18 oktyabr 1859** – Fransız filosofu, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1927) Anri Berqson (Henri-Louis Bergson; 1859–1941) anadan olub. Əsərləri: “Yaradıcılıq təkamülü”, “Materiya və yaddaş”.

**18 oktyabr 1926** – Amerika müğənnisi və bəstəkarı, rok-n-rollun ilk ifaçılarından biri Çak (Çarlz) Berri (Charles Edward Anderson Berry; 1926–2017) anadan olub.

**19 oktyabr 1899** – Qvatemala yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1967) laureatı Migel Anxel Asturias (Miguel Angel Asturias; 1899–1974) anadan olub. Əsərləri: “Senyor prezident”, “Dəfn olunmuşların başçısı” və s.

**20 oktyabr 1854** – Fransız şairi, poeziyada simvolizmin banilərindən biri Artur Rembo (Jean Nicolas Arthur Rimbaud; 1854–1891) anadan olub.

**20 oktyabr 1919** – Başqırd şairi Mustay (Mustafa) Kərim (1919–2005) anadan olub.

**Hazırladı: V.Orxan**

# “Ah, bu könül nəğmələri...”

## Türkiyə-Azərbaycan dostluq konserti

Oktyabrın 11-də Beynəlxalq Muğam Mərkəzində “Ah, bu könül nəğmələri” adlı Türkiyə - Azərbaycan dostluq konserti təqdim olundu. Konsert Türkiyə Cümhuriyyəti Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində fəaliyyət göstərən Musiqi Təhsili Vəqfi və Yunus Əmrə İnstitutunun birgə təşkilatçılığı ilə keçirildi.







Konsertdən əvvəl tədbirin aparıcısı Kamilə Babayeva musiqi layihəsi haqqında məlumat verdi.

Yunus Əmrə İnstitutu Bakı Mərkəzinin rəhbəri Selçuk Karakılıç bildirdi ki, türk musiqisi türk mədəniyyətinin geniş sərhədlərini, mədəniyyətlərarası müxtəlifliyini və tolerantlığını əks etdirən yüksək sənət nümunəsi olaraq təbliğ edilir. Bu sənət Türkiyənin böyük sivilizasiyasını quran ruhun, nəfəsin səsidir. Konsertdə təqdim olunan mahnıların hər birinin maraqlı tarixçəsi var. Bu hekayələrin cəmi Türkiyənin mədəni müxtəlifliyini, zəngin və seçkin sivilizasiyasını və sənət dünyasını təmsil edir.

Tanınmış televiziya aparıcısı Nur Tuğba Aktay türk musiqi mədəniyyətini onları fərqli və xüsusi edən dəyərləri, eyni zamanda ortaq məxrəcləri olan bir xəzinə kimi səciyyələndirdi.

Musiqi Təhsili Vəqfinin rəhbəri Fikret Erkaya dedi: “Konsertdə səsləndiriləcək mahnılar sevgimizin, birliyimizin məhsuludur və bu mahnıları sizinlə bölüşməkdən məmnunluq duyuruq”.

Türkiyənin Azərbaycandakı Səfirliyinin mədəniyyət və tanıtma işləri üzrə müşaviri Muhittin Macit isə “Bu gün biz bu köklü dostluğu, qardaşlığı və həmrəyliyi universal musiqi dili ilə bir daha ifadə edirik” deyə tamaşaçılara xoş seyrlər arzuladı.

Sonra söz musiqiyə verildi.

Solist Burcu Göktürk instrumental ifaçıların müşayiəti ilə türk klassik musiqisinin ustadlarından olan Səlahəddin Pınar, Sadettin Kaynak, Münir Nurəddin Selçuk və Avni Anıl kimi bəstəkarların əsərlərini oxudu.

Konsertdə “Nihavənd” məqamında Azərbaycan xalq mahnıları da ifa olundu. Xüsusilə Rəşid Behbudovun ölməz repertuarından “Nazəndə sevgilim”, “Aman ovçu”, “Bu qala, daşlı qala” və s. mahnılar sürəkli alqışlarla qarşılandı.

Arzu Yücebıyık, Ayça Bingöl, Uğur Gökdemir və Ahmet Yağmur Kucur (vokal), Ahmet Furkan Duyar (qanun), Emre Elifoğlu (violonçel), İlayda Uçar (ritm), İremnur Yaşar (kamança), Məhəmməd Ceylan (ney) və Murat Büyükkaya (ud) kimi usta ifaçıların çıxışları alqışlarla qarşılandı.

Türkiyə və Azərbaycan tarixi, mədəni və emosional bağlarla sıx bağlı olan iki ölkə olaraq bu qardaşlığı sənət vasitəsilə daha da dərinləşdirir. “Ah, bu könül nəğmələri” konserti sənət dostluğumuzun ən gözəl nümunələrindən biri olaraq yaddaşlarda iz qoydu.

**Lalə Azəri**

# Ölkəmiz Dünya Səyahət və Turizm Şurasının sammitində təmsil olunub

Dövlət Turizm Agentliyinin (DTA) nümayəndə heyəti Avstraliyanın Pert şəhərində keçirilən Dünya Səyahət və Turizm Şurasının (WTTC 2024) Qlobal Sammitində iştirak edib.




DTA-nın Aparat rəhbəri Kənan Qasımov və Azərbaycan Turizm Bürosu idarə heyətinin sədri Florian Zenqstşmid Dünya Səyahət və Turizm Şurasının baş icraçı direktoru Culia Simpson və “Trip.com Group”un baş direktoru Ceyn San ilə görüş keçiriblər.

Sammit zamanı keçirilən müzakirələrdə Azərbaycan nümayəndə heyəti tərəfindən UNESCO-nun Dünya İrs Siyahısına daxil edilən (2023) “Xınalıq və Köç yolu mədəni landşaftı”nın qorunub saxlanılması, turizm üzrə biomüxtəlifliyin mühafizəsi və icma əsaslı turizmin inkişafı haqqında məlumat verilib.

Həmçinin diqqətə çatdırılıb ki, noyabrda Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasında (COP 29) ilk dəfə turizm mövzusunun fəaliyyət gündəliyinə salınması turizmin iqlim dəyişikliyinə qarşı mübarizədə rolunu artırmağa, eləcə də iqlim dəyişikliyinin bu sektor üzərində mənfi təsirlərinin azaldılmasına töhfə verəcək.

Qeyd edək ki, WTTC hər il səyahət və turizm sənayesi liderləri ilə dövlət nümayəndələrini bir araya gətirən platformadır. Azərbaycan tərəfdaş ölkə kimi WTTC-nin hotellər üçün nəzərdə tutulan 12 əsas fəaliyyət istiqamətini özündə birləşdirən “Dayanıqlı Əsaslar” proqramının üzvüdür.

# Fransız aşpazın kitabında Azərbaycan mətbəxi

Fransadakı səfirliyimizin Mədəniyyət Mərkəzində Azərbaycan milli mətbəxinin nümunələri daxil olmaqla 150 ölkənin yumurtadan hazırlanan yeməklərinin reseptlərindən ibarət “Eggcellent” kitabının təqdimatı keçirilib.




Tədbirdə nəşrin müəllifi, tanınmış kulinariya ustası və kulinariya teleşousunun aparıcısı Siril Ruke-Prevostun kitabı hazırlamaq üçün səyahət etdiyi ölkələr haqqında məlumat verilib.

Müəllif gəzdiyi ölkələrin mətbəxləri barədə fikirlərini bölüşüb, eləcə də Azərbaycana səyahətindən, milli mətbəximizdən söz açıb.

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva qastrodiplomatiyanın mədəniyyət diplomatiyasının bir forması olduğunu deyib. Qeyd olunub ki, mətbəx mədəniyyətlər arasında körpülərin yaradılmasında rol oynayır, ölkə milli mətbəxini xaricdə tanıtmaqla öz nüfuzunu və beynəlxalq cəlbediciliyini artırır.

“Eggcellent” kitabında qurmanlara Azərbaycan milli mətbəxinin yumurtadan hazırlanan bir neçə resepti təqdim olunur.

Tədbir iştirakçıları Azərbaycan milli mətbəxindən kükü, yumurtalı toyuq çığırtması, yumurtalı lobya kimi yeməkləri dadıblar.

Xronoqraf

# Tarixdə bu gün

## Olaylar, faktlar (16 – 20 oktyabr)



**20 oktyabr** Azərbaycanda “Energetiklər günü”dür. 1981-ci ilin həmin günü Mingəçevirdə respublika energetikasının flaqmanı – “Azərbaycan” İES-in birinci bloku istifadəyə verilib. Prezident İlham Əliyevin 2004-cü ildə imzaladığı fərmanla bu tarix energetiklərin peşə bayramı elan olunub.

### 171 il əvvəl...

**16 oktyabr 1853-cü ildə** Krım müharibəsi başlanıb. Müharibədə Rusiya və ona qarşı Osmanlı, Britaniya və Fransa alyansı çıxış edirdi. Üç il sürən müharibənin yekununda (1856-cı il 30 mart, Paris sülhü) Rusiya Qara dənizdə hərbi donanma saxlamaq hüququndan məhrum edildi. Bessarabiyanın cənubu Osmanlıya verildi. Rusiya 1878-ci ildə Osmanlı ilə müharibədən sonra itirdiyi mövqeləri özünə qaytardı.

### 157 il əvvəl...



**18 oktyabr 1867-ci ildə** Rusiyadan satın alınan Alyaska rəsmən ABŞ-nin ərazisi elan edilib. Rusiya İmperiyası Senatı həmin ilin 30 martında imzalanmış müqaviləni təsdiq etdikdən sonra müvafiq protokol ABŞ rəsmilərinə təqdim edilib. Alyaska (1,5 milyon kvadrat kilometr) o dövr üçün böyük məbləğ sayılan 7,2 milyon dollara (qızılla) ABŞ-yə satılmışdı. 18 oktyabr ABŞ-də “Alyaska günü” kimi qeyd edilir.

### 113 il əvvəl...

**18 oktyabr 1911-ci ildə** Osmanlı ilə İtaliya arasında Liviya uğrunda gedən müharibənin başa çatmasına dair sülh sazişi imzalanıb. Osmanlı paytaxt Tripoli də daxil olmaqla Liviyanın bir hissəsini İtaliyanın nəzarətinə keçməsinə razılaşıb.

### 101 il əvvəl...

**20 oktyabr 1923-cü ildə** Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi (MİK) “Yeni Azərbaycan əlifbasının dövlət əlifbası kimi tanınması haqqında” dekret qəbul edib. Latın qrafikalı əlifbaya tam keçid 1929-cu ildə reallaşdı. 1939-cu ildə onu kiril əlifbası əvəzlədi.

### 33 il əvvəl...

**18 oktyabr 1991-ci ildə** Azərbaycan Parlamenti – Ali Sovet “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı qəbul edib. Konstitusiya Aktı



Azərbaycanın müstəqilliyini bərpa etməsi barədə Ali Sovetin 1991-ci il 30 avqust tarixli Bəyannaməsinin davamı olaraq qəbul olunub. 18 oktyabr Azərbaycanda Müstəqilliyin Bərpası Günüdür.

***

**19 oktyabr 1991-ci ildə** erməni silahlı dəstələri Qarabağda azərbaycanlı əhaliyə qarşı daha bir terror aktı törədib. Ağdərə rayonunun Sırxavənd kəndi yaxınlığında minik avtomobilinin partladılması nəticəsində 3 nəfər həlak olub, 2 nəfər yaralanıb.

### 4 il əvvəl...

**17 oktyabr 2020-ci ildə** Azərbaycan Silahlı Qüvvələri Füzuli şəhərini Ermənistanın işğalçı qüvvələrindən azad edib. Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixdə imzaladığı sərəncamla 17 oktyabr Füzuli Şəhəri Günü elan edilib.

**Hazırladı: V.Orxan**

# “Mədəniyyət Yolu” Diyarbəkirdən keçir

## Altı aydır davam edən festival sona yaxınlaşır

Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə altı aydır davam edən Mədəniyyət Yolu Festivalı sona yaxınlaşmaqdadır. Festivalın 14-cü dayanacağı olan Diyarbəkir 12–20 oktyabr tarixlərində “Mədəniyyət Yolu”na ev sahibliyi edir.



Şəhərin Sur rayonundakı tarixi İçqala muzey kompleksində keçirilən açılış mərasimində çıxış edən Türkiyə mədəniyyət və turizm nazirinin müavini Batuhan Mumcu artıq 3-cü dəfə Mədəniyyət Yolu Festivalının marşrutu üzərində yer alan Diyarbəkirin tarixi yerləri, turizm potensialı və özünəməxsus qastronomiyası ilə ölkənin öndə gedən yerlərindən biri olduğunu deyib.



“Bizim borcumuz Diyarbəkirin gözəlliklərini, tarixi dəyərlərini və imkanlarını bir daha nümayiş etdirmək və tanıtmaqdır. Bu məqsədlə şəhərin tarixi küçələrinə, zamana meydan oxuyan tikililərə və qədim mədəni irsə yaraşan şəkildə – ümumilikdə 46 yerdə 250-yə yaxın tədbir nəzərdə tutulub. Doqquz gün sürəcək geniş proqrama hər yaşa uyğun konsertlər, sərgilər, sənət görüşləri daxildir”, – deyə o əlavə edib. Batuhan Mumcu festivalın Diyarbəkirin mövcud turizm potensialına da böyük dinamizm gətirəcəyinə inandıqlarını bildirib.

Diyarbəkir valisi Murat Zorluoğlu Prezident Rəcəb Tayyib Ərdoğanın himayəsi ilə Mədəniyyət və Turizm Nazirliyinin keçirdiyi festivalın əhatə etdiyi şəhərlərin sayının hər il artdığını və bu layihənin ölkənin ən mühüm mədəniyyət və sənət hadisəsinə çevrildiyini vurğulayıb.

Sonra İçqala kompleksində qurulan stendlərə baxış keçirilib, Arxeologiya Muzeyində Ənənəvi sənətlər dərnəyinin “Coğrafiya, ənənənin taleyi: Diyarbəkir”, Türk Jokey Klubunun 12-ci rəsm yarışması və digər sərgilərin açılışı olub.

Qeyd edək ki, dördüncüsü təşkil edilən festival 2024-cü ildə 16 şəhəri əhatə edir. Aprel ayında Adanada başlayan festivalın proqramında iki marşrut qalıb. 26 oktyabr – 3 noyabrda İzmir ev sahibliyi edəcək, 2–10 noyabrda isə “Mədəniyyət Yolu”nun son dayanacağı Antalya olacaq.

# Vətənpərvərlik kinosu əsas prioritetdir

Rusiya Federasiyasının Mədəniyyət Nazirliyi kino layihələrinin maliyyələşdirilməsində vətənpərvərlik bölməsinin bundan sonra da əsas prioritet olacağını açıqlayıb.

Nazirliyin Kinematoqrafiya və rəqəmsal inkişaf departamentinin direktoru Dmitri Davidenko kinostudiyaların dövlət subsidiyası alması üçün yeni şərtlərdən danışarkən bildirib ki, prioritet bölmənin mövzuları kifayət qədər genişdir. Buraya ənənəvi ailə dəyərlərinin qorunması və populyarlaşdırılması, regionların və bütövlükdə Rusiyanın turizm imkanlarının təbliği, ənənəvi mənəvi-əxlaqi dəyərlərin yayılması, rus elmi, tarixi haqqında filmlər, klassiklərin əsərlərinin ekranlaşdırılması, habelə gəncləri müxtəlif peşələrə və mühəndislik ixtisaslarına yiyələnməyə həvəsləndirmək kimi mövzular daxildir.

Nazirlik rəsmisi əlavə edib ki, film layihələrinin seçimində əsas yeniliklərdən biri də müraciətlərə baxılması və qiymətləndirilməsi üzrə yeni yaradılacaq komissiya olacaq. Müraciətlərdə (debüt ərizələri də daxil olmaqla) axın (striminq) videoservislərində yerləşdirmə, festivallarda iştirak və filmin kinoteatrlarda nümayişi yolu ilə layihələrin gələcək həyata keçirilməsi üçün zəmanət məktubu olmalıdır.

Davidenkonun sözlərinə görə, departament Mədəniyyət Nazirliyinin maliyyələşdirdiyi bütün filmlərin tamaşaçılara çatmasına nəzarət etməyi planlaşdırır.

Bu arada Rusiya Federasiyasının mədəniyyət naziri Olqa Lyubimova son dövrdə yerli kino bazarının artdığını bildirib. Onun sözlərinə görə, 2023-cü ildə prokata Rusiya istehsalı olan 207, cari ilin altı ayında isə 103 film buraxılıb. 2024-cü ilin birinci yarısında Rusiya kinoprokat bazarının həcmi təxminən 29 milyard rubl (300 milyon dollar) təşkil edib.

**Elan**

Naxçıvan Muxtar Respublikası Ə.Naxçıvani adına Naxçıvan Politexnik Texnikumunun məzunu olmuş Əliyev Sevan Məhiyəddin oğluna verilən Texniki inşaatçı ixtisası üzrə LT 026677 nömrəli diplom (04.04.1988-ci il) itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2412
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641